# ÜMUMİ TARİX 6

DƏRSLİK



 

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

VƏLİ ƏLİYEV, İLYAS BABAYEV,
AİDƏ MƏMMƏDOVA

# ÜMUMİ TARİX 6

*Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün*
*Ümumi tarix fənni üzrə*

**DƏRSLİK**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
aspoligraf.ltd@gmail və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

«ASPOLİQRAF»
BAKI–2018

## ŞƏRTİ İŞARƏLƏR

 — *Ev tapşırığı*

 — *Mövzu ilə bağlı internet axtarış sistemlərinə müraciət etmək üçün açar sözlər*

 — *Qrupa verilən tapşırıqlar*

# KİTABIN İÇİNDƏKİLƏR

## İBTİDAİ DÖVR

1. İbtidai icma quruluşunun yaranması və inkişafı ............8
2. İbtidai icma quruluşunun dağılması ..........................11

## QƏDİM MİSİR VƏ ÖN ASİYA

3. Qədim Misir dövləti..............................................15
4. Qədim Misirdə mədəniyyət ......................................21
5. Qədim şumerlər ....................................................25
6. Babil dövləti .........................................................29
7. Finikiya ................................................................34
8. Assur dövləti ........................................................39
9. Midiya dövləti .......................................................44
10. Əhəmənilər dövləti ..............................................48
11. Parfiya dövləti......................................................53

## QƏDİM TÜRKLƏR. QƏDİM ÇİN VƏ HİNDİSTAN

12. Qədim türklər ......................................................56
13. İskit dövlətləri......................................................61
14. Böyük Hun dövləti ...............................................65
15. Qədim Çin ............................................................69
16. Qədim Hindistan ...................................................74

## QƏDİM YUNANISTAN

17. Avropada ən qədim dövlət.
Qədim yunan şəhər-dövlətləri ...............................80
18. Yunanlar işğalçılara qarşı.
Afina quldarlıq demokratiyası ..............................86

19. Qədim Yunanıstan mədəniyyəti ..............................91
20. Yunan şəhər-dövlətlərinin tənəzzülü.
Makedoniya dövlətinin güclənməsi ..............................96

## QƏDİM ROMA

21. Qədim Roma respublikasının yaranması ..................102
22. Respublikanın sonu.
Roma imperiyasının yaranması və süqutu............112
23. Qədim Roma mədəniyyəti......................................118
Tarixi rəvayətlər...................................................123
İstifadə olunmuş ədəbiyyat........................................127

**Əziz məktəblilər!**

Siz bu dərsliyi oxumaqla uzaq keçmişə səyahət edəcək, ən qədim insanların necə yaşadıqlarını, onların həyatının necə və nə üçün dəyişdiyini öyrənəcəksiniz. Dərslikdə siz eradan əvvəl (e.ə.) ifadəsinə tez-tez rast gələcəksiniz. Bəzi mənbələrdə bu ifadə «miladdan əvvəl» şəklində də yazılır.

«Eramızdan əvvəl», yaxud «miladdan əvvəl» nə deməkdir?

Bizim hazırda istifadə etdiyimiz təqvimdə göstərilən tarix rəvayətə görə, xristian dininin peyğəmbəri İsanın doğum günündən, yəni **miladdan*** başlayır. İsa peyğəmbərin doğum tarixindən əvvəl baş verən hadisələrdən danışarkən «eradan əvvəl» (e.ə.), yaxud «miladdan əvvəl» ifadəsini işlədirlər. Məsələn, e.ə. 75-ci ildən söhbət gedirsə, bu o deməkdir ki, hadisə İsa peyğəmbərin anadan olmasından 75 il əvvəl baş verib.

Yer kürəsində həyatın tarixi milyon ildən artıq bir zamanı əhatə edir. Bəşər cəmiyyəti aşağıdakı inkişaf mərhələlərindən keçmişdir:

– *ibtidai icma, quldarlıq, feodalizm və kapitalizm.*

<table>
<tr><th colspan="8">İbtidai icma quruluşu</th><th colspan="4">Quldarlıq quruluşu</th><th colspan="13">Feodalizm quruluşu</th><th colspan="4">Kapitalizm quruluşu</th></tr>
<tr><td colspan="8">Minilliklər</td><td colspan="21">Yüzilliklər</td></tr>
<tr><td>8</td><td>7</td><td>6</td><td>5</td><td>4</td><td>3</td><td>2</td><td>1</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td><td>7</td><td>8</td><td>9</td><td>10</td><td>11</td><td>12</td><td>13</td><td>14</td><td>15</td><td>16</td><td>17</td><td>18</td><td>19</td><td>20</td><td>21</td></tr>
<tr><td colspan="8">Eramızdan əvvəl (e.ə.)</td><td colspan="21">Bizim era (b.e.)</td></tr>
</table>

Bu dərsliyin köməyi ilə siz ən uzaq keçmişdən eramızın III—V əsrlərinə qədər böyük zaman çərçivəsində Qədim Şərqin və Qərbin qüdrətli dövlətlərinin yüksəliş və tənəzzülünün səbəblərini öyrənəcək, qədim xalqların bizi bu gün də heyran edən mədəni nailiyyətləri ilə tanış olacaqsınız.

* ***Milad*** – İsanın anadan olduğu il

## İBTİDAİ DÖVR

# 1. İBTİDAİ İCMA QURULUŞUNUN YARANMASI VƏ İNKİŞAFI

İbtidai insanlar, ulu icma, Daş dövrü, neandertal, «ağıllı insan», anaxaqanlığı



1. Ən qədim insan



2. Daş alətlər



*Ən qədim insanı və onun həyat tərzini təsvir edin.*

İbtidai icma quruluşu çox uzun tarixi dövrü əhatə etmişdir. Yer üzərində ən qədim insanların izləri Şərqi Afrika və Asiya qitəsində aşkar edilmişdir. İlk vaxtlar hələ xüsusi bacarıqları olmayan qədim insanlar təbiət hadisələri ilə, aclıq və soyuqla çətinliklə mübarizə aparırdılar. Bu dövrdə istifadə olunan əmək alətləri, əsasən, daşdan olduğuna görə həmin dövrü Daş dövrü adlandırırlar. Alimlər Daş dövründə yaşamış qədim insan skeletinin qalıqlarına əsasən onun xarici görkəminin necə olduğunu müəyyən etmişlər. Qədim Daş dövrü insanlarının qolları çox uzun olub dizlərinə çatırdı. Onlar bu əllərlə sadə işlər görürdülər. Ağacların budaqlarından meyvə yığırdılar. Torpağı ucu iti sivri daşla, ucu şiş ağacla qazaraq meyvə kökü və s. toplayırdılar. Onlar ilk zamanlar sürü halında *(«ulu icma»)* yaşayırdılar. Sərbəst danışa bilmirdilər. Lakin qırıq-qırıq səslərlə ünsiyyət yaradırdılar. Təhlükə zamanı qorxu bildirən səslər çıxararaq, bir-birlərini xəbərdar edir və ya köməyə çağırırdılar.

Dəyənək, itiuclu ağac və sivri daşlar ən qədim insanların ilk əmək alətləri idi. *Yığıcılıq və ovçuluq* qədim insanların ilk məşğuliyyəti olmuşdur. Zaman keçdikcə insanlar daşdan və sümükdən əmək alətləri hazırlamışlar. Əmək aləti düzəltmək üçün hər cür daşdan istifadə olunmurdu. Daha çox vulkanik şüşə (dəvəgözü), çaxmaqdaşı və əhəngdaşını seçirdilər. Çünki bu növ daşlar zərbə nəticəsində asan parçalanır, iti yanları olan qəlpələr əmələ gəlirdi. Belə daşlardan əti parçalamaq, əti dəridən ayırmaq, ağacları yonmaq, yeri qazmaq və s. işlərdə istifadə olunurdu.

**Odun əldə edilməsi.** İlk zamanlar ibtidai insanlar təbiətdə rastlaşdıqları oddan qorxurdular. Şimşək çaxması, meşə yanğınları, vulkan püskürməsi onları dəhşətə gətirirdi. Lakin sonralar insanlar gördülər ki, bu hadisələr zamanı yaranan od onları soyuqdan, yırtıcı heyvanlardan qoruyur. Alt Paleolitdə insanlar, əsasən, meşə yanğınlarından istifadə edərək ocaq qalayır, onun ətrafına yığılırdılar. Yəqin ki, təsadüfən tonqala düşmüş ət parçasının — bişmiş ətin dadlı olduğunu görən insanlar ovladıqları heyvanları bişirməyi öyrənmişlər. İnsanlar artıq odun faydasını bildikləri üçün onu sönməyə qoymurdular. Bunun üçün növbə ilə ocağın keşiyini çəkirdilər. Çünki onlar hələ özləri od əldə etməyi bacarmırdılar.

*Odun əldə edilməsinin insan həyatında mühüm hadisə olduğunu izah edin.*

*Orta Paleolit* dövründə insanlar *(neandertallar)* çaxmaqdaşını bir-birinə vurmaqla süni yolla od əldə etməyə nail oldular.

*İbtidai insanların həyatında baş vermiş ən mühüm hadisələrin ardıcıllığını müəyyən edin.*

**Qədim insanların təsərrüfat həyatı.** «Ağıllı insan»lar *(«Homo sapiens»lər — müasir insan tipi)* yeni əmək vərdişləri qazanır, əmək alətlərini təkmilləşdirirdilər. *Üst Paleolitdə qəbilə icması* formalaşdı. Qəbilə qan qohumluğu əsasında yaranır, anaxaqanlığı *(matriarxat)* formalaşırdı.

Orta Daş dövründə *(Mezolit)* ovçuluqda olan yenilik — ox və kamanın ixtirası insanların ətə olan ehtiyacını təmin etdi. Onlar iri heyvanları ovlayır, balalarını isə tutub xüsusi düzəldilmiş **küzdə*** saxlayır, əhliləşdirirdilər. Beləliklə, ovçuluqdan maldarlıq yaranmağa başladı.

Toxumun yerə düşüb cücərdiyini görən qadınlar sonralar özləri onu yumşaltdıqları torpaq sahələrinə səpir və yenidən məhsul alırdılar.



3. Qədim ovçular

* ***Küz*** – heyvanların saxlanılması üçün ağac çubuqlarından, qamışdan hörülərək düzəldilən yer

4. Daş və sümükdən hazırlanmış əmək alətləri: 1,2 — daş toxalar; 3 — sümük oraq; 4 — sümük toxa




*Qədim insanların təsərrüfat həyatını təsvir edin.*



5. Neolit dövrünün qabı

Əvvəllər taxıl əllə toplanırdı. Sonralar sünbülü biçmək üçün yeni əmək aləti — oraq yarandı. Oraq sümükdən hazırlanırdı. *Yeni Daş* dövründə qədim insanlar *toxa əkinçiliyi* ilə su mənbəyinə yaxın olan münbit torpaqlı sahələrdə məşğul olurdular. Ən qədim əkinçilərin ilk məskənləri daha əlverişli şəraitə malik olan Ön Asiya ərazisində olmuşdur. Burada arpa və buğda əkilirdi. Qida ehtiyatı, taxıl, ət, süd və s. məhsulları saxlamaq üçün onların qablara ehtiyacı var idi. İnsanlar gilin odda bişərək bərkidiyini görüb, ondan keyfiyyətli gil qablar istehsal etməyə başlamışlar. **Dulusçuluqdan*** başqa, dəriişləmə də ibtidai insanların mühüm peşəsi olmuşdur. Beləliklə, tədricən qəbilə icmalarında sənətkarlığın müxtəlif sahələri meydana gəlir və formalaşırdı.

## SUAL VƏ TAPŞIRIQLAR

1. Daş dövrünün mərhələlərini qeyd etməklə sxem çəkin.
2. Ən qədim insan izləri harada aşkar olunmuşdur?
3. Qədim insanın ilk məşğuliyyəti nə idi?
4. Qədim insanlar ilk dəfə odla nə vaxt tanış oldular?
5. İlkin maldarlıq və əkinçilik necə formalaşdı?
6. Qədim insanlar hansı sənətkarlıq sahələri ilə məşğul olmuşlar?

«Qədim insanın həyatının bir günü» adlı hekayə qurun.

* ***Dulusçuluq*** – gil qabların düzəldilməsi sənəti

## 2. İBTİDAİ İCMA QURULUŞUNUN DAĞILMASI

Tunc dövrü, mis, xış, qonşuluq icması, büt, tayfa

**Metalın kəşf olunması. Xış əkinçiliyi.** Eneolit dövründə insan ilk metalı *(misi)* kəşf etdi. Mis nisbətən yumşaq metal olduğundan ondan hazırlanan alətlərdən hər yerdə istifadə etmək mümkün olmurdu. Sonralar misə başqa qarışıqlar qatmaqla tunc alındı. Tuncdan hazırlanan alətlər mis alətlərə nisbətən daha möhkəm olurdu. İbtidai insan metaldan yalnız əmək alətləri deyil, müxtəlif məişət avadanlığı və bəzək əşyaları da hazırlaya bilirdi.



1. Tuncdan hazırlanmış **at əsləhələri***

Tunc dövründə insan xış alətini icad etdi. Xış ağacdan hazırlanırdı. Bununla da *xış əkinçiliyi* yarandı. Bu alətlə daha geniş torpaq sahələri şumlanır, bol məhsul yetişdirilirdi. Metal emalı və xış əkinçiliyi insanların əməyini daha da məhsuldar etdi. Bu ağır işlərlə kişilər məşğul olurdular. Ona görə də kişilərin nüfuzu getdikcə artdı və nəticədə anaxaqanlığı ataxaqanlığı *(patriarxat)* ilə əvəz olundu. Əkin sahələri genişlənir, mal-qaranın sayı artırdı. Tədricən əkinçilik maldarlıqdan ayrıldı. Əkinçi və maldar icmalar formalaşdı. Bu, birinci ictimai əmək bölgüsü idi. Əkinçilər və maldarlar öz məhsullarını mübadilə *(dəyişmək)* edirdilər.

*Tunc dövründə insan əməyinin məhsuldarlığını artıran səbəbləri müəyyən edin.*

Daha sonra əkinçi və maldarlar arasından sənətkarlar yetişdi. Yəni ikinci böyük ictimai əmək bölgüsü baş verdi.



2. Tunc bəzək əşyası

İnsanlar 40 min ilə yaxın bir müddətdə qəbilə icması halında yaşadılar. Onlar birlikdə işləyir, topladıqları məhsulu bərabər bölürdülər. İcma üzvlərinin sayı artdıqca təsərrüfat da genişlənirdi. Təsərrüfatı idarə etmək daha asan olsun deyə torpaq və mal-qara ayrı-ayrı ailələr arasında

*Tunc dövrünə xas olan xüsusiyyətləri izah edin.*

* ***At əsləhələri*** – yəhər, yüyən, cilov, qoşqu hissələri




3. Qəbilə icması




4. Qonşuluq icması



*Tunc dövründə qədim əhalinin dini görüşlərini şərh edin.*

bölündü. Qəbilə icması *qonşuluq icması* ilə əvəz olundu.

Sənətkarlıq da inkişaf edirdi. Sadə gil qablarla yanaşı, naxışlı və boyalı qablar da hazırlanırdı. Hələ Neolit dövründə müxtəlif parçalar toxumaq üçün sadə toxuculuq alətindən istifadə edilirdi.

Sənətkarlığın inkişafı Ön Asiya, Qədim Şərq, Qafqaz, o cümlədən Azərbaycan tayfaları arasında iqtisadi-mədəni əlaqələrin yaranmasına təkan verdi.

**Din.** İbtidai insanların təsərrüfat həyatı ilə bağlı dini görüşləri formalaşırdı. Ovçular uğurlu ov üçün, əkinçilər günəşin çıxması və yağış yağması üçün fövqəltəbii qüvvələrə dua edirdilər. İnsanlar fövqəltəbii qüvvələrin *bütlərini* düzəldir və bu bütlərə sitayiş edirdilər.

İbtidai insanlar elə başa düşürdülər ki, ölmüş insanın həyatı axirət dünyasında da davam edir. Ona görə də ölünü dəfn edərkən, onun yanına müxtəlif məişət əşyaları və silahlar qoyurdular.

Ölülər müxtəlif cür dəfn olunurdu. İçərisi çıxarılıb **mumiyalanaraq***, olduğu kimi və ya yandırılaraq külü qəbrə qoyulurdu. Qəbir abidələri də müxtəlif olurdu. Hökmdar hakimiyyətinin böyüklüyünü göstərmək üçün müxtəlif abidələr tikilir, qayalar çapılaraq **sərdabələr*** hazırlanırdı. Tayfa başçıları və varlı adamların qəbri üzərində **kurqanlar*** qurulurdu. Ölülər



5. Ön Asiyadan tapılmış dəmir əmək alətləri

* ***Mumiya*** — insan cəsədini çürüməkdən qoruyan xüsusi maddə
* ***Sərdabə*** — qəbir abidəsi
* ***Kurqan*** — torpaq təpə

**daş qutu*** və torpaq, küp və **katakomba*** qəbirlərdə dəfn edilirdi.

Bir yaşayış məskənində yerləşən bir neçə qohum qəbilə *tayfa* yaradırdı. Onların adət-ənənəsi eyni idi. Bir dildə danışırdılar. Tayfanı ağsaqqallar idarə edirdilər.

**Tayfaların idarə olunması. Bərabərsizliyin yaranması.** Tunc dövründə tayfa ağsaqqalları tədricən varlanmağa başladılar. Onlar geniş məhsuldar torpaqlar ələ keçirir, yaşayış yerlərinin ətrafını möhkəm qala divarları ilə hasarlayır və keşikçi dəstələri yaradırdılar.

Tayfa başçıları, ağsaqqallar, hərbi rəhbərlər və **kahinlər*** varlandıqca, Tunc dövrünün sonu — *İlk Dəmir* dövründə cəmiyyətdə sosial bərabərsizlik yarandı. Varlılar — əyanlar, kasıblar — icmaçı kəndlilər, qullar meydana gəldi. Beləliklə, ibtidai icma quruluşu dağıldı, dövlət formalaşdı. Tayfa başçıları tədricən hökmdara çevrildi. Bəzi məsələlərin həllində onlar ağsaqqalları və hərbi başçıları toplayır, lakin son qərarı özləri çıxarırdılar.

*Tunc dövründə sosial bərabərsizliyin necə yarandığını izah edin.*

*Qədim dövlətin əlamətlərini müəyyən edin.*



6.

**Dövlətin əlamətləri.** Hökmdar dövlətin başında dururdu. Hökmdara tabe olan tayfaların yaşadığı ərazilər *dövlətin ərazisi* idi. Qədim dövlətlər çox zaman daha iri yaşayış mərkəzlərində formalaşır və qala-şəhər onun *paytaxtına* çevrilirdi. Dövlətin *ordusu* yaranırdı. Ordu piyada və atlılardan ibarət olurdu.

Dövlətin bütün sərvəti — pulu, daş-qaşı və s. qiymətli əşyaları *xəzinədə* toplanırdı. Kəndlilərdən alınan vergilər də xəzinəyə daxil olurdu.


7. Gil lövhə üzərində qədim yazı

* ***Daş qutu*** — dörd tərəfi və üzəri sal daşlardan ibarət olan qəbir
* ***Katakomba*** — quyu qazılır, onun divarında qəbir oyuqlarına ölülər və əşyalar qoyulur, oyuğun ağzı çay daşları ilə hörülür
* ***Kahin*** — dini mərasimləri icra edən şəxs

**Yazı.** Dövlət yarandığı dövrdə *yazı* meydana gəldi. Dövlətin ərazisində yaşayan kəndliləri siyahıya alırdılar. Hər bir kəndlinin torpağı, malqarası, meyvə ağacı və ya borcu qeydə alınırdı. Yazını papirus qamışından hazırlanan lövhələr, gil lövhələr, daş, dəri və s. materiallar üzərində yazırdılar.

### İbtidai icma quruluşunun dövrləri

| | | | |
|---|---|---|---|
| 4. | | Dəmir dövrü | E.ə. II minilliyin sonu — I minillik |
| 3. | | Tunc dövrü | E.ə. IV minilliyin 2-ci yarısı — II minilliyin sonları |
| 2. | | Eneolit dövrü (Mis-daş dövrü) | E.ə. VI—IV minilliyin 2-ci yarısı. Daş dövründən metal əsrinə keçid |
| 1. | | Daş dövrü | İlk insan tipinin yaranmasından e.ə. VI minilliyədək |
| | c) | Neolit (Yeni Daş dövrü) | E.ə. VII minillik |
| | b) | Mezolit (Orta Daş dövrü) | E.ə. XII—VIII minilliklər |
| | a) | Paleolit (Qədim Daş dövrü) *Üst Paleolit* *Orta Paleolit* *Alt Paleolit* | İlk insan tipinin yaranmasından e.ə. XII minilliyə qədər davam etmişdir. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Metaldan istifadə olunması cəmiyyətdə hansı dəyişiklikləri yaratdı? İzah edin.
2. Qonşuluq icması necə yarandı?
3. Dulusçuluqda hansı yeniliklər baş verdi?
4. İbtidai insanlar arasında dini görüşlər necə formalaşdı?
5. Hərbi dəstələr və keşikçilər nə üçün lazım idi? İzah edin.
6. Yazı nə üzərində yazılırdı?



Dövlətin əlamətlərini əks etdirən sxemi doldurun.

**Dövlət**

## QƏDİM MİSİR VƏ ÖN ASİYA

### 3. QƏDİM MİSİR DÖVLƏTİ

Nil, şaduf, nomlar, Memfis, Fiv, firon, çati, «canlı ölülər»

İbtidai icma quruluşu dağıldıqdan sonra qədim dövlətlər yarandı. İlk dövlətlər Şərqdə yaranmışdır. Bu dövlətlərdən biri qədim Misir dövlətidir.

**Misirin coğrafi mövqeyi.** Misir Afrikanın şimal-şərqində yerləşir. Bu ölkənin ərazisindən dünyada ən uzun çay olan *Nil çayı* axır. Qədim misirlilər Nili *«Böyük çay»* da adlandırmışlar. Nil çayı Aralıq dənizinə tökülür.

Misirin coğrafi mövqeyi ticarət üçün çox əlverişli idi. Misir bir çox ölkələrlə quru və su yolları vasitəsilə əlaqə saxlayırdı. Dağlıq ərazidən müxtəlif növ tikinti daşları və qiymətli daşlar (zümrüd, firuzə və s.) əldə edilirdi.

**Nil daşqınları.** Nil çayı ildə bir dəfə daşaraq öz məcrasından (axarından) çıxırdı. Çay sularının gətirdiyi mineral maddələrlə zəngin olan lil vadidə çöküntü təbəqəsi yaradırdı. Nilin gətirdiyi lilli qara torpaq asanlıqla şumlanırdı. Beləliklə, Nil vadisindəki torpaqlar əkinçilik üçün çox münbit və məhsuldar olurdu. Ona görə də qədim misirlilər öz ölkələrini *«Qara torpaq»* adlandırırdılar. Vadidə əhalinin məskunlaşdığı məntəqələri və əkilən torpaq sahələrini daşqından qorumaq məqsədilə Nil sahili boyunca *damba* deyilən bəndlər tikilirdi. Bəndlər təpə formasında olur və doğranmış qamış qatılan gildən qurulurdu.

Misirdə süni suvarma inkişaf etmişdi. Hündürdə yerləşən tarlalara, bağlara su vermək üçün **şadufdan*** istifadə olunurdu.

Nil vadisində müxtəlif növ bitkilər bitirdi. Bunlardan ən əhəmiyyətlisi papirus qamışı idi.

*Qədim Misir dövlətinin coğrafi mövqeyini təsvir edin.*



1. Şaduf



2. Papirus lövhələrinin hazırlanması

* ***Şaduf*** — torpağa basdırılmış dirəkdən və hərəkət edən şüvüllərdən ibarət idi. Onun bir ucuna daş, o birinə dəri tuluq bağlanırdı

# QƏDİM MİSİR




Vadilər, əkinçilik üçün yararlı ərazilər

Paytaxt şəhərlər

Şəhərlər

Qədim misirlilər papirus qamışından kiçik lövhələr kəsir və bu lövhələrin üzərinə yazı yazırdılar.

**Qədim Misirdə dövlətlərin yaranması.** Nil vadisində əkinçi və maldar tayfalar məskunlaşmışdı. Bu tayfalar öz aralarında birləşərək ayrı-ayrı təşkilatlar yaradırdılar. Bu təşkilatlar «**nom**»* adlanırdı. İlk vaxtlar nomların sayı çox idi. Nomların mərkəzi müdafiə divarları ilə əhatə olunurdu. Hökmdara, əyanlara məxsus saraylar, baş tanrının məbədi burada yerləşirdi. Hər bir nomun öz hökmdarı, özünəməxsus dini və tanrıları vardı.

Nomlar arasında daim rəqabət gedirdi. Hər nomun hökmdarı istəyirdi ki, zəif nomları özünə tabe etsin. Nomlar birləşdikcə onların sayı azaldı və e.ə. *IV minilliyin 2-ci yarısında* iki müstəqil padşahlıq — *Yuxarı Misir* və *Aşağı Misir* yarandı. Bu iki padşahlıq arasında uzun müddət vahid Misir dövləti yaratmaq uğrunda mübarizə gedirdi. *E.ə. IV minilliyin sonunda* bu mübarizə iqtisadi cəhətdən daha güclü olan Yuxarı Misirin qələbəsi ilə başa çatdı. Vahid Misir dövləti yarandı. Bu dövlətin paytaxtı *Memfis* idi. *E.ə. II minillikdə* dövlətin paytaxtı *Fiv* olmuşdur.

Misirdə sənətin müxtəlif sahələri — dulusçuluq, metalişləmə, zərgərlik, toxuculuq, daşişləmə, sümükişləmə və s. yaxşı inkişaf etmişdi. Misirin ticarət karvanları uzaq Ön Asiya ölkələrinə qədər gedirdi.

Gəmiçiliyin inkişafı ticarətin daha da genişlənməsinə səbəb olmuşdu. Bu işdə Nil çayının mühüm rolu vardı.

**Fironlar.** Misir dövlətinin hökmdarı *firon* adlanırdı. Ölkədə aparılan hər bir mühüm hərbi, dini və inşaat tədbirləri fironun adından həyata keçirilirdi.

*Vahid Misir dövləti necə yarandı?*




3. Yuxarı *(a)*, Aşağı *(b)* Misir padşahının və vahid Misir dövləti hökmdarlarının *(c)* tacı

*Qədim Misir necə idarə olunur və müdafiə edilirdi?*

* ***Nom*** — yunanca «vilayət» deməkdir



4. Qədim Misir gəmisi



5. Qədim Misir ordusunun piyada döyüşçüləri

Fironun ən yaxın köməkçisi olan ali məmur *çati* adlanırdı. Adətən, firon bu vəzifəyə öz övladlarını təyin edirdi. Çati ölkənin təsərrüfat həyatını və məhkəmə orqanlarını idarə edirdi. Fironun dəftərxanası və dövlət xəzinəsi çatinin əlində idi.




6. Qədim Misirdə sosial təbəqələr

Qədim Misirin piyada ordusu vardı. Əsgərlər ox, yay və qısa xəncər və s. ilə silahlandırılırdı.

Qədim Misir dövlətində kahinlər çox böyük nüfuza malik idilər. Onlar fironu yer üzünün tanrısı, *«Günəş oğlu»* adlandırırdılar. Fironu müqəddəsləşdirib ona sitayiş edirdilər. Fironları dəfn etmək üçün **piramidalar*** tikilirdi.

**Misirdə sosial təbəqələr.** Misirdə əhali müxtəlif təbəqələrə bölünmüşdü: birinci təbəqəni varlı əyanlar, kahinlər, varlı icma üzvləri təşkil edirdilər. İkinci təbəqəyə əkinçi icmaların azad üzvləri

* ***Piramida*** — ehram, fironların iri daşlardan qurulmuş çox nəhəng məqbərəsi

daxil idi. Üçüncü təbəqə isə, əsasən, qullardan ibarət idi. Qədim Misirdə müharibə zamanı tutulan əsirlər kölə — qul halına salınırdı. Onları *«canlı ölülər»* adlandırırdılar. Qul əməyindən dövlət və məbəd təsərrüfatında, zadəganların malikanələrində istifadə edilirdi. Qulun sahibi onu döyə, sata və hətta öldürə də bilərdi. Sənətkarlar azad insanlar idi. Əkinçilər və maldarlar *«kiçiklər»* adlanırdı.

*Qədim Misirdə sosial təbəqələşməni təsvir edin.*

**Fironların hərbi yürüşləri.** Firon *I Tutmos* hakimiyyətə gəldiyi zamandan işğalçılıq müharibələrini genişləndirməyə başladı. I Tutmos Aralıq dənizinin şərq sahilindəki dövlətlərə yürüş etmiş, Fərat çayına kimi gəlib çatmışdı. Daha sonra Misiri onun nəvəsi *III Tutmos* idarə etməyə başladı. Onun hakimiyyəti dövründə Ön Asiya ölkələrini firona tabe olan canişinlər idarə edirdilər. Bu ölkələr Misiri müxtəlif sərvətlərlə təmin edirdi. Nubiyadan Misirə qızıl, Suriya, Fələstindən mis, Efiopiya və Finikiyadan tikinti üçün ağac gətirilirdi. Bununla kifayətlənməyən firon *II Ramzes* Misirin yeni genişmiqyaslı işğalçı yürüşlərinə başladı. E.ə. XIII əsrin əvvəllərində II Ramzes *het* tayfalarını məğlub etdi və onlarla sülh bağladı. Fələstin, Finikiya və Suriyanın cənubu yenidən Misirin hakimiyyəti altına keçdi.



7. III Tutmos döyüş arabasında

*Misirin qonşu ölkələrlə münasibətini müəyyən edin.*

II Ramzes ölkədə quruculuq işləri həyata keçirməyə başladı. O, Misirdə və Nubiyada böyük sərdabələr, saraylar və məbədlər tikdirmişdi. Nubiyada qaya içərisində oyulmuş məbədin önündə II Ramzesin 24 metrlik heykəli qoyulmuşdu. Onun vəfatından sonra Ön Asiyada Misirin mövqeyi zəiflədi.



8. Firon II Ramzes və həyat yoldaşı *(Nubiya)*

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. IV minilliyin 2-ci yarısı | Yuxarı Misirdə və Aşağı Misirdə iki müstəqil padşahlıq yarandı. |
| * E.ə. IV minilliyin sonu | Misirdə vahid dövlət yarandı. |
| * E.ə. IV minilliyin sonu | Memfis paytaxt oldu. |
| * E.ə. II minillik | Fiv şəhəri paytaxt oldu. |
| * E.ə. XIII əsrin əvvəlləri | II Ramzes het tayfalarını məğlub edib onlarla sülh bağladı. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Misir harada yerləşir?
2. Misir ərazisindən hansı faydalı qazıntılar çıxarılırdı? Bu, nəyə imkan yaradırdı? İzah edin.
3. Nil daşqınlarının Misir üçün əhəmiyyəti nə idi?
4. Nə üçün Misiri «Qara torpaq» adlandırırdılar?
5. Bu sözlərin izahını verin: *damba*, *şaduf*, *nom*
6. Yuxarı Misir dövləti nə vaxt qələbə çaldı?
7. Firona münasibət necə idi? İzah edin.
8. Qulların sayının artmasının səbəbini izah edin.
9. Kimləri «Kiçiklər» adlandırırdılar?
10. II Ramzes hansı quruculuq işlərini həyata keçirdi?

Misir fironları və onların yürüşləri haqqında təqdimat hazırlayın.

# 4. QƏDİM MİSİRDƏ MƏDƏNİYYƏT

Qədim Misir, piramidalar, Sfinks, heroqliflər, su saatı, günəş saatı

**Din.** Qədim misirlilər çoxtanrılı dinə etiqad edirdilər. Onlar Günəşə, Aya, Nil çayına, heyvanlara və müxtəlif əşyalara sitayiş edirdilər.

Tanrıların hökmdarı və fironun havadarı hesab edilən *Amon* baş tanrı sayılırdı. Tanrılar heyvan, yaxud quşbaşlı insan görkəmində təsvir olunurdu.

*Misirlilərin dini görüşlərini şərh edin.*



1. Misir tanrıları

**Piramidalar.** Qədim Misirdə fironun şəxsiyyəti ilahiləşdirilmişdi. Ona yer üzünün tanrısı kimi sitayiş olunur və itaət edilirdi.

Fironun qeyri-adi qüdrətə malik olmasını göstərmək üçün piramidalar tikilirdi. Yaşı min illərlə ölçülən piramidalar müasir dövrümüzə qədər gəlib çatmışdır. İlk piramida firon *Cosero* məxsus idi. Onun hündürlüyü *60* metrdir. Ən hündür piramida isə



2. Xeopsun piramidası və Sfinks
*(Misir, Giza. Müasir şəkil)*

*Misir piramidalarını təsvir edin.*

firon *Xeopsun* şərəfinə inşa edilmişdi. Bu piramidanın hündürlüyü *147* metrdir. Misir piramidalarının daşları yüngül əhəngdaşlarından yonulurdu. Ona görə də onları yüksəkliklərə qaldırmaq nisbətən asan idi. Piramidalarla yanaşı, burada qayadan yonulmuş 20 metr hündürlüyündə olan böyük **Sfinks*** heykəli də indiyədək qalmışdır. Qədim misirlilər Sfinksi *«dəhşətlər atası»* adlandırırdılar.



3. Qədim Misir yazısı

I Tutmosdan başlayaraq fironları artıq piramidalarda deyil, gizli sərdabələrdə dəfn edirdilər.

**Yazı.** E.ə. IV minilliyin sonunda qədim Misir yazısı meydana gəlmişdi. Bu, şəkli yazı idi. Sonralar Misirdə *heroqliflər* yarandı. Heroqlifləri *«müqəddəs işarələr»* adlandırırdılar. İşarələrin sayı 700—750-yə çatırdı. Heroqliflər daş, ağac, dəri, papirus lövhələr üzərində yazılırdı.

**Əfsanələr.** Qədim misirlilərin şifahi xalq yaradıcılığında əfsanələr mühüm yer tutur. Əfsanələr qədim misirlilərin həyatı və məişətindən bəhs edir, tanrı və fironların qüdrətinin sarsılmaz olduğunu təbliğ edirdi.

*Misirdə yaranan əfsanələrin mövzusunu müəyyənləşdirin.*

Dünyanın yaranması haqqında Misir əfsanəsində Günəş tanrısı *Ra* dünyanın yaradıcısı hesab edilirdi. Əfsanəyə görə, səmanı, yeri, bitki və heyvanları Ra yaratmışdır.

**İncəsənət.** Misir incəsənəti, əsasən, firon hakimiyyətinin möhkəmləndirilməsinə xidmət edirdi. Tanrıların və fironların şərəfinə əzəmətli məbədlər, saraylar, piramidalar tikilir, heykəl-

* ***Sfinks*** — insan başlı, aslan bədənli əfsanəvi varlıq

lər yaradılırdı. Məbədlərin divarında ilahiləşdirilmiş fironların həyatı və göstərdikləri qəhrəmanlıqlar təsvir olunurdu.

Misirlilər qayanı çapıb sərdabələr düzəldirdilər. Bu sərdabələr çoxsaylı otaqlardan ibarət olurdu. Orada tanrıları və fironları əks etdirən müxtəlif abidələr qoyulurdu. Bu cəhətdən firon *Tutanhamonun* sərdabəsi öz zənginliyi ilə seçilir.



4. Tutanhamona aid maska

**Elm.** Misirlilər hesab və həndəsə sahəsində biliklərə malik idilər. Piramidaları yalnız dəqiq riyazi hesablamalar nəticəsində tikmək mümkün idi. Misirlilər *onluq hesablama sistemini* — 1, 10, 100, 1000, 10000, 100000-ni ya-ratmışdılar. Hətta milyonu bildirən işarə də var idi. Bu işarə təəccübdən əllərini yuxarı qaldırmış insan təsviri şəklində verilirdi. Misirlilər düzbucağın, üçbucağın, trapesiya və dairənin sahəsini hesablaya bilirdilər. *Astronomiya* sahəsində müəyyən elmi təsəvvürlər var idi.

*Misir incəsənətinin uğurları haqqında danışın.*

*Misirlilərin elm sahəsində qazandığı uğurları dəyərləndirin.*



5. Qədim misirlilərin ulduz təqvimi



6. Tuncdan düzəldilmiş cərrahiyyə alətləri

Misir alimləri planeti ulduzdan fərqləndirir, ulduzların xəritəsini çəkə bilirdilər. Misirlilər *su və günəş saatı* ixtira etmişdilər. Onlar *təqvim* yaradıb ili 12 aya, gecə və gündüzü 24 saata bölmüşdülər. Təqvimdə hər ay 30 gündən ibarət idi. İlin sonuna 5 gün əlavə edirdilər. Bu hesabla bir il 365 gündən ibarət idi.

Misirdə təbabət də inkişaf etmişdi. Diş, göz və başqa xəstəliklər müalicə olunurdu. Xəstələr üzərində sadə cərrahiyyə əməliyyatları da aparılırdı.

## XRONOLOGİYA

* E.ə. IV minilliyin sonu Misirdə yazı meydana gəldi.

## SUAL VƏ TAPŞIRIQLAR

1. Qədim misirlilərin dini görüşləri haqqında danışın.
2. Piramidaların tikilməsinin səbəblərini izah edin.
3. Misirdə yazılar nə üzərində yazılırdı?
4. Qədim Misirdə heroqlifləri, sizcə, nə üçün «müqəddəs işarələr» adlandırırdılar?
5. Qədim misirlilərin hesab və həndəsə sahəsində biliklərini müasir biliklərlə müqayisə edin.
6. Misirlilər astronomiya sahəsində hansı bilikləri qazanmışdılar?



«Qədim misirlilər dünya mədəniyyəti xəzinəsinə nələr bəxş etmişlər?» adlı kiçik hekayə qurun.

## 5. QƏDİM ŞUMERLƏR

Mesopotamiya, Şumer, ensi (luqal), mixi yazı, zikkurat

**Mesopotamiyanın təbiəti və əhalisi.** Qədimdə *Dəclə və Fərat çayları* arasındakı düzənlik *Mesopotamiya* adlanırdı. Mesopotamiya yunan dilində ***«İkiçayarası»*** deməkdir. Bu ərazi münbit və məhsuldar torpaqlara malik idi. Türkdilli xalq olan şumerlər *e.ə. VII–VI minilliklərdə* Mərkəzi Asiya və Altay dağlarının ətəklərindən gələrək burada məskən salmışdılar.

*Şumerlərin məskunlaşdığı məkanı müasir xəritədə göstərin.*

**Şəhər-dövlətlər.** Mesopotamiyanın cənub hissəsi Şumer ölkəsi adlanırdı. Burada e.ə. *III minilliyin* əvvəllərindən başlayaraq ***Ur, Uruk, Kiş, Eredu, Laqaş, Umma, Nippur*** və digər Şumer şəhər-dövlətləri meydana gəlmişdi.

Erkən Şumer şəhər-dövlətləri ***«en»*** adlanan kahin tərəfindən idarə olunurdu. O, şəhər-dövlətlərə və məbəd işlərinə, ölkənin təsərrüfat həyatına, suvarma kanallarının çəkilməsinə, hərbi işlərə rəhbərlik edirdi.

*Şumer ölkəsi və onun idarə olunmasını təsvir edin.*

Tədricən Şumer şəhər-dövlətlərində hökmdar meydana gəldi. O, ***«ensi»***, yaxud ***«luqal»*** adlanırdı.



1. Mixi yazı

**Mədəniyyət.** Mesopotamiyada da ən qədim yazı *şəkli* yazı idi. Şumerlər *e.ə. III minilliyin* əvvəllərində *mixi* (mıx formalı olduğu üçün) işarələrdən ibarət yazı növünü yaratdılar. Sonralar şimalda yaşayan akkadlar, babillər və assurlar da mixi yazını mənimsədilər.

Şumerlər sənətin müxtəlif sahələri ilə məşğul olurdular. Onların arasında dulusçuluq sənəti və memarlıq yaxşı inkişaf etmişdi. Mesopotamiya memarlığına xas olan *zikkurat* 3, 5, 7 mərtəbədən ibarət pilləli məbədlər idi. Zikkuratın yuxarı pilləsində kiçik ibadətgah yerləşirdi. Zikkuratdan səma cisimlərini müşahidə etmək

*Şumer mədəniyyətinin uğurlarını dəyərləndirin.*

# QƏDİM MESOPOTAMİYA




| | |
|---|---|
| (yaşıl) | Vadilər |
| AKKAD | Dövlətlər |
| ◎ | Paytaxt şəhərlər |
| ● | Şəhərlər |

üçün rəsədxana kimi də istifadə olunurdu. Memarlar əzəmətli, gözəl məbəd və saraylar tikməyi bacarırdılar. İnşaatda çiy kərpicdən istifadə olunurdu. Məbədlər təpələr üzərində tikilirdi. Məbəd divarları müxtəlif təsvirlərlə bəzədilirdi. Daş və mərmərdən heykəlciklər yonulurdu. Mesopotamiyada zərgərlik, silahqayırma və başqa sənət sahələri də inkişaf etmişdi. Sənətkarlar müxtəlif daşlardan möhürlər hazırlayırdılar. Bu möhürlərin üzərində insan, heyvan şəkilləri təsvir edilirdi. Şumerdə dama oyununun ilkin nümunəsi olan oyun lövhəsi də yaradılmışdı.



2. Zikkurat *(müasir şəkil)*

Şumerlər maraqlı məzmuna malik olan əfsanələr, rəvayətlər yaratmışlar. Bu rəvayətlərdə dünyanın və insanın yaranmasından, eləcə də tanrılardan bəhs olunur.



*Şumer rəvayətlərinin məzmununu şərh edin.*



3. E.ə. III minillikdə Şumerdə istifadə olunan qədim oyun
*(Müasir dama oyununun ilkin nümunəsi)*

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. VII—VI minilliklər | Şumerlər Mərkəzi Asiya və Altay dağlarının ətəklərindən gələrək Mesopotamiyada məskunlaşdılar. |
| * E.ə. III minilliyin əvvəlləri | Mesopotamiyada şəhər-dövlətlər meydana gəldi. |
| * E.ə. III minilliyin əvvəlləri | Şumerlər mixi yazı növünü yaratdılar. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Şumerlər Mesopotamiyaya nə vaxt və haradan gəlmişdilər?
2. Cənubi Mesopotamiyada hansı şəhər-dövlətlər meydana gəlmişdi?
3. Şəhər-dövlətləri kimlər idarə edirdilər?
4. Mesopotamiyada yazı necə yarandı?
5. Zikkuratı hansı məqsədlərlə inşa edirdilər?
6. Mesopotamiyada heykəltəraşlıq necə inkişaf etmişdi?
7. Mesopotamiyanın şəhər-dövlətlərini xəritədə göstərin.
8. Şumer memarlığının xüsusiyyətləri haqqında danışın.



Şumer mədəniyyəti haqqında təqdimat hazırlayın.

# 6. BABİL DÖVLƏTİ

Babil, Hammurapi, qanun, Babil mədəniyyəti

**Babil dövlətinin meydana gəlməsi.** *E.ə. II minilliyin əvvəlində* Mesopotamiyada Babil şəhər-dövləti yaranmışdı.

Qədim yunan müəllifləri öz əsərlərində bu şəhəri *Vavilon* adlandırmışlar. Akkad dilində şəhərin adı *Bab-ili (Tanrının qapısı)* yazılırdı.

Babil şəhəri Dəclə və Fərat çaylarının bir-birinə yaxınlaşdığı, su və karvan yollarının birləşdiyi ərazidə yerləşirdi. Belə əlverişli mövqedə yerləşdiyi üçün Babil inkişaf edərək ticarət mərkəzinə çevrilmişdi. E.ə. təxminən 1894-cü ildə Sumuabum adlı hökmdar bu şəhərin ətrafındakı əraziləri birləşdirərək Qədim Babil dövlətini yaratdı.

**Hammurapi və onun qanunları.** Qədim Babil dövlətinin ən qüdrətli hökmdarı *Hammurapi* (e.ə. 1792—1750) olmuşdur.

*Müasir xəritədə Babil şəhər-dövlətinin yerləşdiyi məkanı müəyyən edin.*



1. Babil şəhəri

a)



b)



2. Hammurapi qanunları: a) Tanrı Marduk qanunları Hammurapiyə təqdim edir; b) Hammurapi qanunları



3. Babil qülləsi



4. Hammurapi
*(tunc büst)*



*Hammurapi qanunlarının mahiyyətini izah edin.*

Hammurapi kanalların, yolların çəkilməsinə, yeni binaların tikilməsinə, əkin sahələrinin genişləndirilməsinə, bağçılığın, maldarlığın, sənətkarlıq və ticarətin inkişafına böyük diqqət yetirirdi. O bütün ölkə üçün *vahid qanunlar külliyyatı* tərtib etmişdi. *Bu qanunlar* qara **bazalt*** daş üzərinə həkk olunmuşdu. *282 maddədən* ibarət olan bu qanunlar külliyyatı mixi işarələrlə yazılmışdır.

Qanunlarda borc və faiz, ticarət, torpaq, cinayət və s. aid maddələr var idi.

Hammurapi qanunlarında Qədim Babildə quldarlar, qullar, azad adamlar və hərbçilərdən bəhs olunur. Qanunların bütün maddələri varlı vətəndaşların mülkiyyətini və quldarların mənafeyini müdafiə edirdi. Qanunlar qulla azad adam arasında kəskin fərq qoyurdu. Borc və faizi vaxtında ödəyə bilməyən azad adam qula çevrilirdi.

* ***Bazalt*** — bərk vulkanik süxur

# QƏDİM BABİL DÖVLƏTİ




Vadilər
Paytaxt şəhərlər
Şəhərlər

*Hammurapi qanunlarında qulların vəziyyəti haqqında nə yazılmışdı?*

Hammurapi qanunlarına görə, qul övladları anadangəlmə kölə hesab edilirdi. Qulun ailə üzvləri və əmlakı ağaya məxsus idi. Valideynlərindən biri azad olan övlad azad adam hesab olunurdu.

Qulların vəziyyəti çox ağır idi. Qulları alıb-satırdılar. Qul əşya hesab olunurdu. Dövlət və məbəd təsərrüfatında işləyən qulların sayı daha çox idi.

Qullar heyvan kimi damğalanırdı. Hammurapi qanunlarına görə, öz sahibindən qaçan qulu tutub ağasına qaytaran adama hədiyyə verirdilər. Qaçan qulu gizlədən adam isə ağır cəzaya məhkum edilirdi.

*Babil mədəniyyətinin xüsusiyyətlərini izah edin.*

**Babil mədəniyyəti.** Arxeoloqlar Qədim Babildə memarlığın inkişafından xəbər verən qala divarlarının, məbəd və sarayların qalıqlarını aşkar etmişlər. Buradan üzərində yazılar olan gil lövhələr tapılmışdır. Gil lövhələrdə mixi yazılarla əfsanələr, salnamələr, qanunlar əks olunmuşdur. Babillilər təqvim də yaratmışdılar.



5. Məhsuldarlıq ilahəsi İştar



6. Babil darvazası *(müasir foto)*

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. II minilliyin əvvəli | Babil şəhər-dövləti yarandı. |
| * E.ə. 1792—1750-ci illər | Hammurapinin hakimiyyət illəri. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. E.ə. II minilliyin əvvəlində Mesopotamiyada hansı şəhər-dövlət yarandı?
2. «Babil» sözünün mənası nədir?
3. Babil şəhər-dövləti necə yarandı?
4. Babil şəhərinin coğrafi mövqeyi ilə ticarətin inkişafı arasında nə kimi əlaqə var idi? İzah edin.
5. Azad adam necə qula çevrilirdi? İzah edin.
6. Babil mədəniyyətinin uğurlarını dəyərləndirin.

Hammurapi qanunlarını oxuyun. Bu qanunların müsbət və mənfi tərəflərini qeyd edin.

### BUNU BİLMƏK MARAQLIDIR

**Hökmdar Hammurapinin qanunlarından.** «Mən, Hammurapi, tanrılar tərəfindən qoyulmuş başçı, Fərat çayı ətrafındakı kəndləri tabe edən şahların ən birincisi, ölkəyə haqq və ədalət gətirdim.

Əgər bir adam məbədin və ya şahın əmlakını oğurlayarsa, o öldürülməlidir.

Əgər bir adam qaçmış qulu gizlədərsə, o öldürülməlidir.

Əgər kimsə qulun damğasını kəsib götürərsə, onun barmaqları kəsilməlidir.

Əgər bir adam başqasının qulunu öldürərsə, bunun əvəzində öz qulunu ona verməlidir.

Əgər bir adam başqasının öküzünü öldürərsə, bunun əvəzinə öz öküzünü ona verməlidir.

Əgər bir adamın borcu varsa, onun arvadı, oğlu və ya qızı 3 il müddətinə qul olmalıdır, dördüncü il onlar azad edilməlidir.

Əgər bir adam özünə bərabər bir adamın üzünə şillə vurarsa, cərimə verməlidir.

Əgər bir adam özündən artıq bir adamın (yəni əyanın, kahinin) üzünə şillə vurarsa, o, öküz gönündən hazırlanmış qamçı ilə 60 dəfə qamçılanmalıdır.

Mən, Hammurapi, ədalətli padşaham, bu qanunları mənə Günəş tanrısı bağışlamışdır».

## 7. FİNİKİYA

Finikiya, sidr, purpur, koloniya, əlifba, Tir, Sidon, Bibl

*Finikiyanın təsərrüfat həyatını təsvir edin.*

**Finikiyanın təbiəti. Əhalinin məşğuliyyəti.** Finikiyalılar Aralıq dənizinin şərq sahilində məskunlaşmışdılar. Ölkənin təsərrüfatında bağçılıq geniş yer tuturdu. Kəndlilər, əsasən, üzüm, xurma və zeytun becərirdilər. Onlar üzümdən çəkdikləri şərabı və zeytun yağını qonşu ölkələrdə taxıla dəyişirdilər.



1. Sidr ağacı

Sahilboyu dağlar **sidr*** və palıd meşələri ilə örtülmüşdü. Qiymətli tikinti materialı olan *sidr ağacı* Misirə və başqa ölkələrə idxal edilirdi. Sidr ağacı müqəddəs hesab olunurdu.

Şəffaf şüşə Finikiyada icad olunmuşdu. Finikiyalıların dənizilbizi şirəsindən hazırladıqları tünd-qırmızı boyaq *(purpur)* qonşu ölkələrdə çox yüksək qiymətləndirilirdi. Finikiyanın adı da bu məşhur boyaqla bağlı idi. Qədim yunanlar Finikiyanı *Foinike* adlandırırdılar. Bu da *«purpur (tünd-qırmızı boyaq) ölkəsi»* deməkdir.



2. Şüşə kuzə

**Finikiya şəhərləri və dəniz səyyahları.** Finikiyada yaşayış məskənlərinin mövqeyi olduqca əlverişli idi. Cənubi Mesopotamiyadan, Misirdən gələn yollar burada birləşirdi. Burada Bibl, Sidon, Tir və başqa bu kimi şəhərlər yaranmışdı.

*E.ə. II minillikdə* finikiyalılar ən yaxşı gəmiqayıranlar və dənizçilər kimi tanınırdılar. Finikiyalılar iki cür gəmi düzəldirdilər: hərb gəmiləri və ticarət gəmiləri. Hərbi gəmilərin metaldan hazırlanmış şiş burnu döyüş vaxtı düşmən gəmilərini yanlardan vurur, onları deşirdi.

* ***Sidr*** — həmişəyaşıl iynəyarpaqlı ağac



3. Finikiyalıların döyüş və ticarət gəmiləri

Dənizçilər gəmilərlə Aralıq dənizi boyunca üzür və Atlantik okeanına çıxırdılar. Aralıq dənizi xalqları içərisində ilk dəfə finikiyalılar açıq dənizdə üzməyə başlamışdılar. Finikiya tacirləri dəniz yolu ilə ticarət aparır, Finikiya, Misir və Babil mallarını Yunanıstanda, yunan mallarını isə Şərqdə satırdılar.

Finikiyalı dəniz quldurları sahil kəndlərini qarət edir, adamları oğurlayır, sonra qul kimi satırdılar.

**Koloniyalar*.** Finikiyalılar Aralıq dənizi sahillərində və adalarında özlərinin daimi məskənlərini — koloniyalarını yaratmağa başlamışdılar. *E.ə. XVI əsrdə* İspaniyada, Şimali Afrikada, habelə Kipr, Siciliya, Sardiniya adaları və başqa ərazilərdə Finikiyanın koloniyaları yarandı. Finikiyanın Tir şəhərinin əhalisi tərəfindən Afrikanın şimalında *Karfagen* koloniyası salındı.

*Finikiya şəhərlərinin daha çox dəniz yolu ilə ticarət əlaqələri saxlamasının səbəbini izah edin.*

*Finikiya koloniyalarının yerini müasir xəritə üzərində müəyyən edin.*

* ***Koloniya*** — bir ölkənin ərazisində başqa yerdən köçüb gələn insanların yaşadığı yer

# FİNİKİYA




Finikiya koloniyaları

Finikiya gəmilərinin hərəkət istiqamətləri

Paytaxt şəhərlər

Şəhərlər


YUNANISTAN
ANADOLU
İON DƏNİZİ
Afina
EGEY DƏNİZİ
Malta
DƏNİZİ
KRİT
KİPR
Antioxiya
FİNİKİYA
Arvad
Bibl
Berit
Sidon
Tir
İoppe
Yerusəlim
Kirena
İskəndəriyyə
Memfis
MİSİR
Nil
QIRMIZI DƏNİZ



4. Qədim Finikiya əlifbası

**Sənətkarlar.** Sahil şəhərlərində yaşayan əhali sənətkarlıq, ticarət və dənizçiliklə məşğul olurdu. Şəhərlər qala divarları ilə müdafiə olunurdu. Finikiya şəhərlərində sənətkarlar müxtəlif qablar, metal alət və məmulatlar hazırlayırdılar. Finikiya sənətkarlarının əl işlərinə böyük tələbat var idi. Bu malları almaq üçün Yunanıstandan və başqa ölkələrdən Finikiya şəhərlərinə çoxlu tacirlər gəlirdi.



*Finikiya və Misir yazısını müqayisə edin.*

**Ən qədim əlifba.** Finikiyalılar 22 samit işarədən — hərfdən ibarət *əlifba* tərtib etmişdilər. Finikiya əlifbası əsasında sonralar *yunan əlifbası* yarandı. Yunanlar əlifbaya sait səslər də əlavə etdilər. Müasir əlifbaların hamısı Finikiya və yunan əlifbaları əsasında yaranmışdır.

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. II minillik | Finikiyalılar ən yaxşı gəmiqayıranlar və dənizçilər olmuşlar. |
| * E.ə. XVI əsr | Finikiyalılar Şimali Afrikada, Kipr, Sardiniya, Siciliya adalarında və b. yerlərdə koloniyalar salmışlar. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Finikiya harada yerləşirdi?
2. Finikiya əhalisinin məşğuliyyəti haqqında danışın.
3. Ölkə nə üçün Finikiya adlanırdı?
4. Finikiyada sənətkarlığın inkişafı haqqında danışın.
5. Finikiyada hansı şəhərlər salınmışdı?
6. Finikiya tacirləri hansı ölkələrlə ticarət edirdilər?
7. Finikiyalıların yaratdığı əlifbanı dəyərləndirin.



Dərsliyin mətninə əsasən «Finikiya tacirləri» adlı mətn qurun.

## 8. ASSUR DÖVLƏTİ

Assur, Nineva, «Aşşurbanipal kitabxanası»

**Assur dövlətinin yaranması.** Babildən şimalda, Dəclə çayının yuxarı axarında Assur dövləti yaranmışdı. *E.ə. IX–VIII əsrlərdə* Assur Ön Asiyanın ən qüdrətli dövləti oldu. Onun ilk paytaxtı baş tanrının şərəfinə Assur adlandırılmışdı. Sonralar dövlətin paytaxtı Dəclə sahilindəki Ninevaya köçürüldü.



1. Nineva şəhəri *(müasir şəkil)*

Assur hökmdarları güclü ordu yaratmışdılar. Ordu piyada, süvari, köməkçi hərbi hissə, cəng arabası döyüşçüləri və kəşfiyyat dəstələrinə bölünürdü. Piyadalar qılınc və döyüş baltaları, süvarilər isə uzun nizə, yay-oxla silahlandırılırdılar.



2. Assur əyanları *(qədim təsvir)*

**Assur işğalları.** *E.ə. VIII–VII əsrlərdə* Assur hökmdarları Babili, Suriyanı, Fələstini işğal etdilər. Urartu və Misiri ağır məğlubiyyətə uğratdılar.



3. Assurda hökmdar sarayı *(müasir şəkil)*

# ASSUR İMPERİYASI






Assur ordusu





4. Assur döyüşçüləri

Assurun paytaxtı Ninevanı *«Aslanlar yuvası»* və *«Qan şəhəri»* adlandırırdılar. Assur dəfələrlə, xüsusilə də hökmdar II Sarqonun dövründə Azərbaycanın cənub torpaqlarında yaranmış qədim Manna dövlətinin ərazisinə hərbi yürüşlər etmişdi. Lakin Manna Assur hakimiyyətinə tam tabe olmamışdır. Assur Urartuya qarşı Manna dövlətinin müttəfiqi olmuşdur.

**Assur mədəniyyəti.** Assur dövləti inkişaf etmiş mədəniyyətə malik olmuşdur. Assur hökmdarlarının sarayında divarlar Assur ordusunun qələbələrini əks etdirən şəkillərlə bəzədilirdi. Assur memarlarının inşa etdikləri gözəl şəhərlər, möhtəşəm saraylar, divar şəkilləri, sənətkarların hazırladıqları şirli qablar və gözəl əşyalar bu xalqın yüksək mədəniyyətini əks etdirir.

Assur mədəniyyətinin izlərinə Azərbaycanda da rast gəlinir. Naxçıvanda Assur tipli qalaların tikintisi, Qarabağda Assura aid şirli qabın, Assur hökmdarı *Adadnirarinin* adı həkk olunmuş muncuğun tapılması Azərbaycan—Assur əlaqələrindən xəbər verir.

**Gil kitabələr kitabxanası.** Assur hökmdarı *Aşşurbanipal* Şumer, Babil və Assur ədəbiyyatını çox sevirdi. Təhsilə olan bu böyük sevgisindən Aşşurbanipal gil kitabələri toplayıb onların üzünü köçürmək haqqında əmr verir. On minlərlə



5. Aşşurbanipal ovda *(qədim təsvir)*



6. Assur mixi yazısı

*Assur dövlətinin uğurlu yürüşlərinin səbəbini izah edin.*

*Assur dövlətinin ərazisini və onun təsir dairəsinə salmış olduğu ölkələri xəritədə müəyyən edin.*

*Azərbaycan–Assur mədəniyyətlərarası əlaqələri necə inkişaf etmişdi?*

kitabənin üzü köçürülərək Aşşurbanipalın sarayına gətirilir. Nəticədə, dünyanın ən qədim kitabxanalarından olan *Nineva kitabxanası («Aşşurbanipalın kitabxanası»)* yaranır. Burada Assur və Babil əsatirləri, dastanlar, salnamələr, müxtəlif elm sahələrinə aid kitablar toplanmışdır.

**Assur dövlətinin süqutu.** Assur dövlətinə qarşı Midiya—Babil ittifaqı yarandı. Manna Assur dövlətinə hərbi yardım etsə də, *e.ə. 612-ci ildə* «Aslanlar yuvası» Nineva müttəfiqlər tərəfindən işğal edilərək dağıdıldı. Əzəmətli hökmdar sarayına od vuruldu. Rəvayətə görə, sonuncu Assur hökmdarı əsir düşməmək üçün özünü oda atmışdı. *E.ə. 605-ci ildə* Assur dövləti süqut etdi. Onun torpaqları Midiya və Babil arasında bölüşdürüldü.



*Assur dövlətinin inkişafı və tənəzzülü dövrlərini müqayisə edin.*

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. IX—VIII əsrlər | Assur Ön Asiyanın ən qüdrətli dövləti oldu. |
| * E.ə. VIII—VII əsrlər | Assur dövləti Babili, Suriyanı, Fələstini işğal etdi. |
| * E.ə. 612-ci il | Nineva Midiya və Babil qoşunları tərəfindən tutuldu. |
| * E.ə. 605-ci il | Assur dövləti süqut etdi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Assur dövləti harada yarandı?
2. Assurlar hansı dövlətləri özlərinə tabe etdilər?
3. Assurların məşğuliyyəti haqqında nə deyə bilərsiniz?
4. «Aşşurbanipal kitabxanası» necə yarandı?
5. Nineva — «Aslanlar yuvası» neçənci ildə və kimlər tərəfindən dağıdıldı?



«Aslanlar yuvası» adlandırılan şəhər haqqında mətn tərtib edin.

# 9. MİDİYA DÖVLƏTİ

Midiya, «Avesta», Kiaksar, Astiaq




Midiya dövləti *(e.ə. VII əsrin II yarısı – e.ə. VI əsrin ortaları)*

**Dövlətin yaranması.** *E.ə. IX əsrin sonu — VIII əsrin əvvəlində* Midiya müasir İranın mərkəzində yerləşən xırda vilayətlərdən ibarət ərazi idi. Vilayətləri canişinlər idarə edirdilər. Bu vilayətlər Assur dövlətinə tabe idi.

*E.ə. VIII əsrdə Deyok* adlı canişin Midiya vilayətlərini birləşdirib vahid dövlət yaratdı və hakim sülalənin əsasını qoydu. O, *Ekbatan* (Həmədan) şəhərini saldıraraq Midiya dövlətinin paytaxtı elan etdi.

*Midiya dövlətinin yaranması və idarə edilməsi qaydalarını təsvir edin.*

*Midiya–Assur münasibətlərini şərh edin.*

*E.ə. 672-ci ildə,* hökmdar Kaştaritinin dövründə Midiya Assur dövlətinin tabeliyindən çıxdı.

*E.ə. VII əsrin 50-ci illərində* Assur dövləti ilə Midiya arasında yenidən toqquşma oldu. Əvvəl midiyalılarla dostluq edən kimmer, iskit və sak



1. Assur relyeflərində midiyalıların təsviri

tayfaları bu döyüşdə assurlara kömək etdilər. Midiya məğlub oldu və burada iskitlər ağalıq etməyə başladı.



2. Midiyalılar döyüşdə

**Midiyanın işğalları.** Deyokun nəvəsi *Kiaksar* Midiyada iskit ağalığına son qoydu. Kiaksar hərbi islahat keçirdi. Midiya ordusunu yenidən qurdu, onu nizəçi və oxçu dəstələrinə böldü. Süvariləri (atlıları) piyadalardan ayırdı. Güclü nizami ordu yaratdı. Bundan sonra Midiya geniş işğallara başladı.

Kiaksarın dövründə Midiyanın ərazisi çox genişləndi. Kiaksar Assur dövlətinə qarşı Babillə ittifaqa girdi. Süqut etmiş Assur dövlətinin torpaqları Midiya və Babil arasında bölüşdürüldü. Bundan sonra Midiya Manna və Urartunu da işğal etdi.

*Kiaksarı tarixi şəxsiyyət kimi dəyərləndirin.*

Beləliklə, Kiaksar Midiyanı Ön Asiyanın qüdrətli dövlətinə çevirdi.

**Midiyanın təsərrüfat həyatı.** Midiyada əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq idi. Dulusçuluq, toxuculuq, metalişləmə əsas sənətkarlıq sahələri idi. Dövlətin ərazisindən dəmir, qurğuşun, qızıl və s. metalların çıxarılması metalişləmə sənətinin daha da geniş yayılmasına səbəb olmuşdu. Ölkə ərazisində neft də çıxarılırdı. «*Midiya yağı*» adlanan neftdən, əsasən, hərbi məqsədlər üçün istifadə edilirdi. Neftli parçanı oxlara bağlayıb od vuraraq düşmən üzərinə və yanğın törətmək üçün evlərin damına atırdılar.



3. Ekbatandakı qazıntılar zamanı tapılmış qızıl riton

**Midiyada daxili vəziyyətin pisləşməsi.** Kiaksardan sonra hakimiyyətə onun oğlu *Astiaq* (e.ə.585—550-ci



4. Astiaq nəvəsi balaca II Kir ilə

*Midiya mədəniyyəti və midiyalıların dini haqqında mətn tərtib edin.*



5. «Avesta»dan nümunə

illər) gəldi. Astiaqın dövründə Midiya zadəganlarının hüquqları məhdudlaşdırıldı. Bu, əyanların hökmdara olan rəğbətini və sədaqətini zəiflətdi. Midiya sarayındakı farsmeyilli qüvvələr yaranmış şəraitdən istifadə edərək fəallaşdılar.

Beləliklə, Midiyanın daxili və xarici vəziyyəti çox mürəkkəbləşdi.

**Midiyanın süqutu.** Qədim yunan tarixçisi *Herodot* yazırdı ki, Astiaq hakimiyyətini itirməkdən çox qorxurdu. O, bir yuxu görmüşdü. Yuxuyozanlar demişdilər ki, qızından olan nəvəsi böyüyüb onu taxtdan salacaqdır. Astiaqın qızı fars vilayətinin hakimi *Əhəmənilər* nəslindən olan *I Kambizlə* evlənmişdi.

Astiaq yuxusunun gerçək olmasının qarşısını almaq üçün nəvəsi *II Kirin* öldürülməsi barədə gizli göstəriş verir. Lakin güvəndiyi adamlar onun tapşırığını yerinə yetirmirlər, uşaq sağ qalır və böyüyüb babasına qarşı çıxır. Astiaqın sarayındakı farsmeyilli qüvvələr də II Kirin hakimiyyətə gəlməsinə çalışırdılar. II Kir babası Astiaqa qarşı 3 il mübarizə apardı. O, *e.ə. 550-ci ildə* qələbə çalıb *Ekbatan* şəhərini tutdu. Beləliklə, Midiya dövləti süqut etdi. II Kir Midiya torpaqlarını ələ keçirib, Əhəmənilər sülaləsinin əsasını qoydu.

**Midiya mədəniyyəti.** Qədim yazılı mənbələr və əfsanələr Midiya tarixinin öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Midiyada memarlıq inkişaf etmişdi. Suz sarayları, Ekbatanı əhatə edən yeddi cərgə divarlar, qırmızı kərpic-

dən tikilmiş hökmdar sarayı gözəl memarlıq nümunələridir.

**Din.** Astiaqın dövründə zərdüştilik Midiyada rəsmi dövlət dini idi.

Zərdüştilik *e.ə. VII əsrdə* meydana gəlmişdir. Müqəddəs kitabı *«Avesta»*dır. Zərdüşt təliminə görə, xeyir *(Hörmüzd)* ilə şər *(Əhrimən)*, həqiqət ilə yalan arasında mübarizə gedir. Bu mübarizədə xeyir şərə, həqiqət yalana qalib gəlir. Zərdüştilikdə baş ilahi qüvvə Hörmüzddür. Hörmüzdü od təmsil edir. Ona görə də Zərdüşt dininə inananlar odu müqəddəs sayır, ona sitayiş edirdilər.

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. VIII əsrin sonu | Deyok Midiyada dövlət yaratdı. |
| * E.ə. VII əsr | Zərdüştilik meydana gəldi. |
| * E.ə. 672-ci il | Midiya tayfaları assurların işğalından xilas oldular. |
| * E.ə. 550-ci il | II Kir Ekbatan şəhərini tutdu. Midiya dövləti süqut etdi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Midiya dövləti harada yerləşirdi?
2. Midiyada vahid dövlət yaranmasına kim və nə vaxt təşəbbüs göstərmişdi?
3. Midiyalılar Assur əsarətindən necə xilas oldular?
4. Midiyada nizami ordu necə yarandı?
5. Midiyanın sonuncu hökmdarı kim idi?
6. Zərdüşt təliminin mahiyyətini izah edin.

Qüdrətli Assur və Midiya imperiyalarının dağıdılmasının oxşar səbəblərini araşdırın.

## 10. ƏHƏMƏNİLƏR DÖVLƏTİ

Əhəmənilər imperiyası, II Kir, II Kambiz, Qaumata, I Dara, satrap, darik

*İran yaylasının əhalisinin tərkibini və həyat tərzini təsvir edin.*

**İran yaylasının qədim əhalisi.** Qədim *İran yaylasında* yaşayan əhalinin tərkibi müxtəlif xalqlardan ibarət idi. Bu yerlərin ən qədim sakinləri *elamlar* idilər. Çox sonralar bu əraziyə *ari* tayfaları gəlmişlər. Əvvəllər arilər Şərqi Avropa çöllərində yaşamış və maldarlıqla məşğul olmuşlar. *E.ə. II minilliyin axırlarında* ari tayfalarının bir hissəsi Xəzər dənizinin qərb sahilləri ilə Qafqazdan, digər hissəsi Mərkəzi Asiyadan keçib indiki İran ərazisində məskunlaşmışlar. Gəlmə arilər tədricən yerli əhali ilə qarışmış və yerli əhali onların dilini qəbul etmişdir. *E.ə. VIII əsrin 2-ci yarısından başlayaraq* Qərbi İranda irandilli tayfalar üstünlük təşkil etmişdir.



1. II Kir

**Əhəmənilər dövlətinin yaranması. II Kirin işğalları.** Əhəmənilər nəslindən olan II Kir öz babası Midiya hökmdarı Astiaqı taxtdan salıb hakimiyyəti ələ keçirdikdən sonra özünü Midiya şahı elan etdi. Ekbatan şəhəri Əhəməni dövlətinin mərkəzi oldu.

II Kirin hakimiyyəti dövründə Əhəmənilər Midiyanın bütün ərazilərini, Kiçik Asiyada Lidiyanı tutdular. Misirə qədər bütün ölkələr Əhəmənilərə tabe edildi. Öz uğurlarından ruhlanan II Kir *massaget tayfalarına* qarşı da yürüş etdi. Yunan tarixçisi Herodot massagetlər haqqında yazır ki, massagetlər çoxsaylı və cəsur xalqdır. Onlar Araks (Araz) çayı ətrafında yaşayırlar. II Kirin yürüşü ərəfəsində massaget tayfalarına *Tomris* adlı cəsur bir qadın başçılıq edirdi. Massagetlərlə döyüşdə o zamanadək məğlubedilməz sayılan II Kir məğlub edilərək öldürüldü.

*II Kiri tarixi şəxsiyyət kimi dəyərləndirin.*

**II Kambizin Misiri işğal etməsi.** II Kirin ölümündən sonra hakimiyyətə gələn oğlu *II Kambiz* böyük ordu ilə Misirə hərəkət etdi. O, *e.ə. 525-ci*

*ildə* həlledici döyüşdə qalib gələrək Misiri özünə tabe etdi. Misir kahinləri II Kambizi firon elan etdilər. Beləliklə, bu yürüşdən sonra Əhəmənilər imperiyası Misirdən Hindistana, İran körfəzi və Hind okeanından Böyük Qafqaz dağlarına qədər çox geniş ərazini əhatə edirdi.

II Kambiz Misirdə olarkən *e.ə. 522-ci ildə* midiyalı **maq*** *Qaumata* Əhəmənilər dövlətində hakimiyyəti ələ keçirdi. Bu xəbəri eşidən II Kambiz Misirdən qayıdarkən yolda müəmmalı şəkildə vəfat etdi. Qaumata Əhəmənilər dövlətinin tərkibinə daxil olan bütün xalqları 3 il müddətinə vergi və hərbi mükəlləfiyyətlərdən azad etdi. Onun yeddi aylıq hakimiyyəti dövründə ölkədə heç bir üsyan baş vermədi. Lakin Qaumata suiqəsd nəticəsində öldürüldü və hakimiyyətə *I Dara* gəldi. I Dara islahatlar həyata keçirib, dövləti *satraplıq* (canişinlik) adlanan vergi dairələrinə böldü. Bu dairələrin başçısı *satrap* adlanırdı. Satraplıqlar padşahın ordusuna döyüşçü dəstələri, böyük tikintilər üçün işçi qüvvəsi verməli idi.



2. I Dara



*Əhəməni dövlətində II Kambiz dövründə baş verən hadisələri şərh edin.*



3. I Daranın sərdabəsi

* ***Maq*** — kahin

# ƏHƏMƏNİLƏR DÖVLƏTİ





ARAL DƏNİZİ
XƏZƏR DƏNİZİ
Yaksart
Oks
BAKTRİYA
Baktra
İDİYA
Kabil
Taksila
Həmədan
ELAM
Suz
HİNDİSTAN
Persopol
Pasarqad
Hind

*Əhəmənilər dövlətinin tarixində I Daranın rolunu müəyyən edin.*



4. I Dara dövründə kəsilən qızıl pul — darik

I Dara güclü ordu və imperiya üçün vahid pul sistemi yaratdı. Pullar qızıl və gümüşdən kəsilirdi. Qızıl pullar Daranın şərəfinə «*darik*» adlanırdı.

I Dara Əhəmənilər dövlətinin ərazisini genişləndirmək üçün quruda və dənizdə müharibələr aparırdı. Onun tabe etdiyi ölkələr talan olunur, xəzinəyə saysız-hesabsız sərvət gətirilirdi.

Əhəmənilər imperiyası III Daranın hakimiyyəti dövründə *Makedoniyalı İskəndərin* Şərqə yürüşü nəticəsində *e.ə. 330-cu ildə* süqut etdi.

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. II minilliyin sonları | Ari tayfaları indiki İran ərazisində məskunlaşdı. |
| * E.ə. 550-ci il | Əhəmənilər dövləti yarandı. |
| * E.ə. 525-ci il | Əhəmənilər dövləti Misiri özünə tabe etdi. |
| * E.ə. 522-ci il | Midiyalı maq Qaumata II Kambizin Misirdə olmasından istifadə edərək Əhəmənilər dövlətində hakimiyyəti ələ keçirdi. |
| * E.ə. 330-cu il | Əhəmənilər imperiyası süqut etdi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Əhəmənilər dövləti necə yarandı?
2. Əhəmənilər imperiyası hansı əraziləri əhatə edirdi? Xəritədə müəyyən edin.
3. Qaumata kim idi?
4. I Daranın islahatlarının mahiyyətini izah edin.
5. Əhəmənilər imperiyasının süqutunu təsvir edin.

Əhəmənilərin işğalları haqqında müxtəlif mənbələrdən məlumat toplayın və təqdimat edin.

## 11. PARFİYA DÖVLƏTİ

Selevkilər, parn, arşakilər, II Mitridat, Krass, Parfiya və İpək yolu

**Dövlətin yaranması.** Parfiya dövlətinin əsasını *parn* qəbilələri qoymuşdur. Bu qəbilələr ilk zamanlar Xəzər dənizi ilə Amudərya çayı arasındakı çöllərdə köçəri həyat sürürdülər. Onlar, əsasən, maldarlıqla məşğul olur və cins atlar saxlayırdılar. Sonralar isə oturaq həyata keçmiş, əkinçilik və üzümçülüklə məşğul olmuşlar.

*Parn qəbilələrinin həyat tərzini və məşğuliyyətini təsvir edin.*

Makedoniyalı İskəndərin vəfatından sonra sərkərdələri onun yaratdığı imperiyanı öz aralarında bölüşdürdülər. Selevk adlı sərkərdə Suriya və Babili ələ keçirdi. Sonrakı illərdə o, hakimiyyətini çox geniş ərazilərə yaydı. Lakin çox çəkmədi ki, *Selevkilər dövləti* zəifləməyə başladı. Bu müddət ərzində dövlətin şərq vilayətlərində iki müstəqil dövlət yarandı. Bunlardan biri *Parfiya*, ikincisi isə *Yunan–Baktriya* dövləti idi.

*E.ə. 247-ci ildə* parn tayfasının başçısı Arşak özünü padşah elan etdi və Parfiya dövlətinin əsasını qoydu. Arşak bəzi ətraf əraziləri öz dövlətinə birləşdirdi. Parfiya dövləti tarixi ədəbiyyatda bəzən Arşakın şərəfinə Arşakilər dövləti də adlanır. *Arşakilər* sülaləsinin nümayəndəsi *I Mitridat* Selevkilər dövlətinin zəifləməsindən istifadə edib Qərbə doğru geniş əraziləri işğal etdi.

*Parfiya dövlətinin yarandığı tarixi şəraiti şərh edin.*



1. II Mitridat

**Parfiya–Roma münasibətləri.** Parfiya II Mitridatın hakimiyyəti illərində daha da qüvvətləndi. II Mitridat *«şahlar şahı»*, *«böyük»* titullarını qəbul etmişdi. Parfiya öz ərazisini Qərb istiqamətində genişləndirməkdə davam edirdi. Bu zaman Roma imperiyası da ərazisini Şərqə doğru genişləndirməyə çalışırdı. Onların Şərqə doğru yürüşlərinə Parfiya mane olurdu. Bu səbəbdən Parfiya və Roma dövlətləri arasında toqquşmalar baş verirdi.

*Parfiya və Roma münasibətlərini şərh edin.*




Parfiya dövləti e.ə. III—b.e. I əsrdə

*Xəritəyə əsasən Parfiya dövlətinin hansı müasir ölkələrin ərazilərini əhatə etdiyini müəyyənləşdirin.*

Roma dövləti *Krassın* başçılığı ilə Parfiyaya qarşı böyük ordu göndərdi. *E.ə. 53-cü ildə* Şimali Mesopotamiyada parfiyalılar Krassı ordusu ilə birlikdə məhv etdilər. *E.ə. 38-ci ildə* olan döyüşdə isə romalılar qələbə qazandılar. 200 ildən çox davam edən Roma—Parfiya qarşıdurmasında tərəflərdən heç biri həlledici qələbə qazana bilmədi.

Parfiya dövləti mövcud olduğu bütün dövr ərzində qədim Azərbaycan dövlətləri Atropatena və Albaniya ilə siyasi, iqtisadi və mədəni əlaqələr saxlamışdır. Bu dövlətlər Roma işğalına qarşı Parfiya ilə birgə mübarizə aparmışdılar. Zaman keçdikcə çoxsaylı müharibələr Parfiya dövlətini zəiflədir, bir çox əyalət hakimləri mərkəzi hakimiyyətə tabe olmaq istəmirdilər. Onlar arasında hakimiyyət uğrunda mübarizə güclənirdi.

*Parfiya dövlətinin süqut etməsinin səbəblərini müəyyən edin.*

**Parfiya mədəniyyəti.** Parfiya dövlətində şəhər mədəniyyəti, sənətkarlıq və ticarət inkişaf etmişdi. *Böyük İpək yolunun* üzərində yerləşən Parfiya dünya ticarətində mühüm vasitəçi rol oynamışdır. Parfiyalılar öz ərazilərindən keçən karvanların qorunmasına xüsusi fikir verir, lakin Çin tacirlərinə Roma ilə birbaşa əlaqə saxlamağa icazə vermirdilər. Parfiya mədəniyyətinə yunan mədəniyyətinin güclü təsiri olmuşdur. Bunu Parfiya pullarının üstündəki yunan yazıları da sübut edir.



2. Parfiya pulları *(e.ə. I əsr)*

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. 247-ci il | Parfiya dövləti yarandı. |
| * E.ə. 53-cü il | Şimali Mesopotamiyada parfiyalılar romalı Krassı ordusu ilə birlikdə məğlub etdilər. |
| * E.ə. 38-ci il | Romalılar parfiyalılar üzərində qələbə qazandılar. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Parn qəbilələrinin həyatını təsvir edin.
2. Parfiya dövlətinin yarandığı tarixi şəraiti təsvir edin.
3. Parfiya dövlətini nə üçün həm də Arşakilər dövləti adlandırırdılar?
4. Midiya və Mesopotamiya ərazisi Parfiyaya hansı hökmdarın dövründə birləşdirildi?
5. Roma və Parfiya arasında ziddiyyətlərin kəskinləşməsinin səbəbi nə idi?
6. E.ə. 53-cü il və e.ə. 38-ci il döyüşlərinin nəticələri nə oldu?

Parfiya—Roma münasibətləri haqqında mətn tərtib edin.

# QƏDİM TÜRKLƏR.
# QƏDİM ÇİN VƏ HİNDİSTAN

## 12. QƏDİM TÜRKLƏR

Orxon yazısı, vahə dövlətlər, Baktriya, Xarəzm, Margiana, Soqdiana, Spitamen

*Qədim türklərin ilk məskənlərini və həyat tərzini təsvir edin.*

**Qədim türklərin ilk məskənləri.** Türklərin yaşadıqları ərazilər şimalda Sibir, cənubda Himalay dağlarına çatırdı. Şərqdə Xinqan dağlarından qərbdə Xəzər dənizinə və Ural dağlarına qədər olan torpaqları əhatə edirdi. Bu torpaqlar *Böyük Türküstan* adlanırdı. Zaman keçdikcə türklər daha geniş ərazilərdə məskən salmışlar. Türk tayfaları olan hunlar şərqə və cənuba köç etmiş, Ural və Volqa çaylarını keçərək qərbə yayılmışlar. Onların bir hissəsi Şimali Qafqaza, bir hissəsi isə Qara dəniz sahillərinə gəlmişdir. Şimali Qafqaza gələn türklərin bir qismi Dərbənd keçidini keçərək, Azərbaycan və Ön Asiyada yerli türk tayfaları ilə qaynayıb-qarışmışlar.




Qədim türklərin köç yolları

Türklərin ən qədim tarixi arxeoloji qazıntılar nəticəsində tapılan maddi mədəniyyət nümunələri əsasında öyrənilmişdir. Özbəkistan və Türkmənistan respublikaları ərazisində Daş və Tunc dövrünə aid yaşayış məskənləri aşkar edilmişdir. Bunlardan biri *Namazqan yaşayış yeridir*.

Sibirin cənubunda və Qazaxıstan çöllərində qədim türk tayfalarına məxsus kurqanlar, torpaq qəbirləri öyrənilmişdir.

İssık gölü yaxınlığında yerləşən Esikdə zəngin tapıntılara malik kurqan açılmışdır. Buradan V əsrə aid 23 hərfdən ibarət Orxon yazısı tapılmışdır.

Türk tayfalarının təsərrüfat həyatında maldarlıq əsas yer tuturdu. Otlaq sahələri ələ keçirmək və yadelli basqınlarından qorunmaq üçün türk tayfaları yeni torpaqlara köç edirdilər. Onlar ailə və ya toplum halında öz yaşayış məskənlərini dəyişir, köçdükləri torpaqlarda hakim olurdular.

**Vahə* dövlətləri.** Əhəməni imperiyasının mövcud olduğu zamanlarda Mərkəzi Asiyada bu



1. Orxon əlifbası ilə yazılmış kitabə




Vahə dövlətləri

*Vahə dövlətlərinin yerləşdiyi əraziləri müasir dövrün xəritəsində göstərin.*

* ***Vahə*** — səhrada və ya çöldə suyu və yaşıllığı olan sahə

imperiyanın *Baktriya, Parfiya, Xarəzm, Margiana* və *Soqdiana* kimi satraplıqları var idi.

*E.ə. IV əsrin 30-cu illərində* Makedoniyalı İskəndərin Şərqə yürüşü nəticəsində Əhəmənilər imperiyası süqut etdi. Əhəmənilərin hakimiyyəti altında olan ölkələr, o cümlədən Mərkəzi Asiya ölkələri müstəqillik qazandılar. Bu dövlətlərdən biri də Xarəzm idi.

Xarəzm hökmdarı oğlunun başçılığı ilə Makedoniyalı İskəndərin yanına elçilər göndərmiş və ona müttəfiq olmağı təklif etmişdi. Lakin buna baxmayaraq, İskəndər Səmərqəndi tutmuş və Sırdərya çayı tərəfdə istehkamlar tikdirmişdi. Bu dövrdə baktriyalılar və soqdianalılar da İskəndərə qarşı mübarizə aparırdılar. Sak tayfaları Sırdərya çayının sağ sahili boyunca toplaşaraq İskəndərlə döyüşə hazırlaşırdılar. İskəndər bu təhlükəni aradan qaldırmaq üçün saklara qarşı yürüşə çıxdı.

*Mərkəzi Asiya xalqlarının Makedoniyalı İskəndərə qarşı mübarizəsini təsvir edin.*

Qədim türklərə məxsus Soqdianada sərkərdə Spitamenin çağırışı ilə yerli əhali yadellilərə qarşı mübarizəyə qalxdı. İskəndər bir neçə döyüşdə qalib gəlsə də, xalqın mübarizə əzmini qıra bilmədi. Spitamen döyüş meydanında həlak oldu, lakin düşmənə boyun əymədi. O, əsl xalq qəhrəmanı kimi yaddaşlarda qaldı.

Makedoniyalı İskəndərin yaratdığı böyük imperiya onun ölümündən sonra sərkərdələri arasında bölündü. Mərkəzi Asiya Selevkin yaratdığı dövlətin tərkibinə daxil oldu. Selevkilər bu ərazilərdə çoxlu şəhərlər saldılar. Şəhərlərin əhalisinin bir hissəsi yerli sakinlərdən, bir hissəsi isə yunanlardan ibarət idi. Lakin başqa imperiyalar kimi, Selevkilər dövləti də parçalandı. Baktriya və Parfiya Selevkilər dövlətindən ayrıldı.

*Mərkəzi Asiya xalqlarının qonşu xalqlarla iqtisadi əlaqələrini şərh edin.*

**Mədəniyyət.** Qədim türklərin yaşadığı ərazilərdə aparılan arxeoloji qazıntılar əhalinin zəngin şəhər mədəniyyətinə malik olduğunu aşkara çıxarmışdır. Dulusçuluq, metalişləmə sənətində



a)



b)

uğurlar qazanılmışdır. Məbəd binaları və bürclü qala divarlarının inşa xüsusiyyətləri göstərir ki, burada, həm də memarlıq yüksək səviyyədə inkişaf etmişdir.

Mərkəzi Asiya xalqlarının mədəniyyətinə İran, Hindistan, ən çox da yunan mədəniyyətinin təsiri olmuşdur. Buradan tapılmış pulların arxa tərəfində yunan tanrılarının (Zevsin, Poseydonun) və qəhrəman Heraklın təsvirləri vardır.

Mərkəzi Asiyada yaşayan qədim əhali zərdüştilik dininə sitayiş etmiş və onlar Günəşi, Ayı və odu müqəddəs saymışlar.




c)

2. Yunan Baktriyada hazırlanmış qızıl məmulatlar:
*a) sancaq;*
*b) qolbaq və*
*c) möhürlü üzük*



3. Dəfn xalçası
*(Pazırıq, e.ə V əsr)*



4. Tanrı qarşısında dayanan atlı
*(Keçə xalça. Pazırıq, e.ə. IV—III əsrlər)*

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. VI—V əsrlər | Mərkəzi Asiya Əhəmənilərin hücumlarına məruz qaldı. |
| * E.ə. VI—IV əsrlər | Mərkəzi Asiyada Baktriya, Parfiya, Xarəzm, Margiana və Soqdiana kimi vahə dövlətləri mövcud oldu. |
| * E.ə. IV əsrin 30-cu illəri | Makedoniyalı İskəndərin Şərqə yürüşü nəticəsində Əhəmənilər imperiyası süqut etdi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Qədim türklərin yaşadığı əraziləri xəritədə göstərin.
2. Türklərin qədim yaşayış məskənləri harada aşkar olunmuşdur?
3. Türklərin əsas məşğuliyyəti nə olmuşdur?
4. Mərkəzi Asiyada hansı vahə dövlətləri olmuşdur?
5. Selevkilər dövləti necə yarandı?
6. Soqdiana və Margiana hansı dövlətin tərkibinə daxil oldu?
7. Mərkəzi Asiyada əhali hansı dinə sitayiş edirdi?

Mərkəzi Asiyada yaranmış türk dövlətləri haqqında müxtəlif mənbələrdən əlavə məlumat toplayın.

## 13. İSKİT DÖVLƏTLƏRİ

Kimmer, iskit, saklar, Tuqdamme, Atey, Neapol, iskit kurqanları, iskit (skif) silahları, çoxtanrılıq

**Kimmer, iskit, sak tayfaları.** Qara dənizin şimalında və Krım yarımadasında türk mənşəli kimmer, iskit və sak tayfaları yaşayırdılar. *E.ə. VII əsrin əvvəllərində* bu tayfalar yaşadıqları ərazilərdən köç etməyə başladılar. Onlar Cənubi Qafqazda və Ön Asiyanın müxtəlif yerlərində məskunlaşdılar. *E.ə. VII əsrin ortalarında* Van gölü ilə Urmiya gölü arasındakı ərazilərdə *Kimmer–İskit–Sak* padşahlığı yarandı. Bu dövlətin ən qüdrətli hökmdarı *Tuqdamme* olmuşdur.

*İskit dövlətinin meydana gəldiyi ərazini müasir xəritədə göstərin.*



1. İskit döyüşçüləri (*müasir şəkil*)

Kimmer, iskit və sakların bir qismi qədim Azərbaycan torpaqlarında məskunlaşmış, burada yaranmış Manna dövləti ilə ittifaq yaratmışdılar. Onların gəlişi Assur dövlətinin bu bölgədəki nüfuzuna böyük zərbə vurdu. Manna Assur ilə ittifaqı pozdu.

Manna dövləti kimi, onun qonşuluğunda olan midiyalılar da kimmer, iskit və sak tayfalarına arxalandılar və Assura qarşı çıxdılar. Lakin sonralar iskitlər midiyalılara yox, Assur



**2. İskit döyüşçüləri (qızıldan hazırlanmış nümunə)**



3. Kimmerlər ovda
*(qədim təsvir)*

dövlətinə yardım etdilər. Nəticədə Midiya iskitlərin hakimiyyəti altına düşdü. İskit tayfaları Midiyada bir müddət ağalıq etdilər. *E.ə. VI əsrin əvvəllərində* Midiya hökmdarı onları Ön Asiyadan çıxartdı və Kimmer—İskit—Sak padşahlığı süqut etdi.

**İskit dövləti.** *E.ə. IV əsrin ortalarında* iskitlər yeni bir padşahlıq yaratdılar. Bu dövlət Şərqi Avropada Don çayından Dunay çayına qədər ərazidə yerləşirdi. *Neapol* şəhəri bu dövlətin paytaxtı oldu. İskitlər öz ərazilərini qərbə doğru genişləndirməyə çalışırdılar. Qərbdə onlar Makedoniya çarı *II Filiplə* üz-üzə gəldilər. *E.ə. 339-cu ildə* baş verən döyüşdə İskit padşahı *Atey* həlak oldu. Lakin 8 il sonra iskitlər ölkənin qərb torpaqlarını işğal etmiş Makedoniya ordularını darmadağın etdilər.



4. İskitlərin dəfn arabası



*İskit dövlətlərinin meydana gəlməsi, inkişafı və tənəzzülü dövrlərini fərqləndirin.*

*E.ə. II əsr* İskit dövlətinin çiçəklənmə dövrüdür. Qonşuluqdakı yunan şəhər-dövlətlərinin bir qismini tabe edən iskitlər, həm də bu ərazilərdən keçən beynəlxalq taxıl ticarətini də ələ keçirməyə çalışırdılar. İşğalçı müharibələr və yadelli basqınları İskit dövlətini zəiflətdi. III əsrin 2-ci yarısında *qot* tayfalarının hücumu nəticəsində İskit dövləti süqut etdi. Sağ qalan





5. İskit kurqanı

iskitlər azadlıqları ilə yanaşı, dillərini və adətlərini də itirib bir xalq kimi tarix səhnəsindən silindilər və digər türk tayfaları ilə qaynayıb-qarışdılar.



6. İskit qadınları

**İskitlərin təsərrüfat həyatı.** Yazılı mənbələr və arxeoloji materiallar iskitlərin həyatı haqqında onu deməyə imkan verir ki, onlar əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olmuşlar. Əkinçi iskitlər, əsasən, dənli bitkilər becərmiş, istehsal etdikləri taxılın bir hissəsini yunanlara satmışlar. Maldar iskitlər qoyun, keçi, qaramaldan başqa, cins atlar da bəsləyirdilər.

İskitlərin məskən saldığı yerlərdə iskit kurqanları öyrənilmişdir. Kurqanaltı qəbirlərdən çoxlu miqdarda müxtəlif sənətkarlıq məmulatları, mis, gümüş və qızıl qablar, silahlar tapılmışdır.

*İskit dövlətlərinin təsərrüfat həyatını təsvir edin.*

**İskit mədəniyyəti**. Qara dəniz sahillərində yaşayan iskitlərin mədəniyyətinə yunan mədəniyyətinin təsiri olmuşdur. İskitlər gözəl incəsənət nümunələri yaratmışlar. İskit abidələrindən çoxlu zoomorf formalı (heyvani üslublu) fiqurlar və daşdan yonulmuş kiçik insan heykəlləri də tapılmışdır.

Kimmer, iskit və sakların mədəniyyəti, dəfn adətləri, dini inancları ümumi cəhətdən bir-birinə yaxındır. İskitlər tanrılara etiqad edirdilər. Onlarda oda, suya və s. inam geniş yayılmışdı.

*İskit mədəniyyətini dəyərləndirin.*



7. Qızıl qab



8. Qızıl gərdənlik (boyunbağı)



9. Qızıl əşya (İskit atlısı)



10. Tunc güzgülər

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. VII əsrin əvvəlləri | Kimmer, iskit və sak tayfaları Cənubi Qafqaza, Ön Asiyaya köç etdilər. |
| * E.ə. VII əsrin ortaları | Ön Asiyada Kimmer—İskit—Sak padşahlığı yarandı. |
| * E.ə. VI əsrin əvvəlləri | Kimmer—İskit—Sak padşahlığı süqut etdi. |
| * E.ə. IV əsrin ortaları | Şərqi Avropada İskit dövləti yarandı. |
| * E.ə. 339-cu il | İskitlər II Filipp tərəfindən məğlub edildilər. |
| * III əsrin 2-ci yarısı | İskit dövləti süqut etdi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. İskit padşahlığı necə yarandı?
2. Paytaxtı Neapol olan İskit padşahlığı necə və nə vaxt yarandı?
3. İskitlərin məşğuliyyəti haqqında nə deyə bilərsiniz?
4. Hansı maddi mədəniyyət nümunələri İskit incəsənətindən xəbər verir?
5. İskitlərin dini görüşləri haqqında nə deyə bilərsiniz?
6. İskitlərin yayıldıqları ərazini xəritədə qeyd edin.



«Azərbaycanda iskit, kimmer və sakların izləri» mövzusunda esse yazın.

# 14. BÖYÜK HUN DÖVLƏTİ

Böyük Çin səddi, tanhu, Mete, Çiçi, şaman



1. Böyük Çin səddi *(müasir şəkil)*

**Qədim hunların ərazisi və məşğuliyyəti.** Hunlar türkmənşəli tayfalardan biri olmuş, *Orxon* və *Selenqa* çayları arasındakı ərazidə yaşamışlar. Hunların əsas məşğuliyyəti ovçuluq, sonralar isə köçəri maldarlıq olmuşdur. Ona görə də geniş otlaq sahələrinə olan ehtiyac onları daim yeni ərazilər ələ keçirməyə sövq edirdi.

*Hunların sosial-iqtisadi vəziyyətini şərh edin.*

**İlk Hun dövlətinin meydana gəlməsi.** Böyük Hun dövləti Mərkəzi Asiyada yaranmış ilk türk dövləti olmuşdur. Vahid Hun dövləti *e.ə. 220-ci ildə* 21 tayfanın birləşməsindən yaranmışdır. Bu tayfa ittifaqına *Teoman tanhu* başçılıq edirdi. «Tanhu» sözü sonralar *yabqu, kağan, xaqan* şəklində işlənmişdir. Teoman qüvvətli bir ordu yaratmış və Çinə hücum etmişdi. Çinlilər sonralar hunların




Çin səddi

Mete tanhunun dövründə ərazinin genişlənməsi

Qərb hunları tərəfindən ərazinin genişlənməsi

Hunların yürüşləri

*Hun dövlətinin yaranmasına təsir edən amilləri izah edin.*

hücumlarının qarşısını almaq üçün *e.ə. 214-cü ildə Böyük Çin səddini* inşa etməyə başladılar.

Hunlar Çin torpaqlarını tutmuş, hətta Çin imperatoru ilə qohumluq əlaqələri də yaratmışdılar. Bu yaxınlıqdan istifadə edən çinlilər Hun ordusunun döyüş üsullarını öyrəndilər. Teoman tanhudan sonra hakimiyyətə gələn oğlu *Metenin* hakimiyyəti dövründə hunlar elə nizami süvari qoşun yaratmışdılar ki, bu ordu öz döyüş üsulları ilə məğlubedilməz sayılırdı.



2. Mete tanhu *(müasir şəkil)*

**Hun imperiyasının parçalanması.** Çindən Mərkəzi Asiya və Avropaya gedən «İpək yolu»na nəzarət uğrunda hunlarla çinlilər arasında mübarizə gedirdi. *E.ə. 58-ci ildə* anası çinli olan şahzadə Hun hökmdarı seçildi. O, Çin dövlətinin himayəsini qəbul etmək istədi. Lakin türk qızından olan qardaşı Çiçi ona qarşı çıxdı və mərkəzi şəhəri tutub tanhu oldu. Beləliklə, Böyük Hun imperiyası iki hissəyə: qərb və şərq hunlarına parçalandı.

*Hun dövləti necə parçalandı?*

*E.ə. 36-cı ildə* qərb hunları Tanrı dağlarının şimalını, İssık gölünün ətrafını, Mərkəzi Asiyanı tutub ərazilərini qərbə tərəf genişləndirdilər. Elə həmin ildə çinlilər Qərbi Hun dövlətinin paytaxtını tutdular. «İpək yolu» üzərində yerləşən



3. Mete yürüşdə *(müasir şəkil)*

şəhərlər qarət edilib dağıdıldı. Qərb hunları Ural dağlarına tərəf çəkildilər. Şərq hunları isə çinlilərin hakimiyyətini qəbul etdi. Lakin 18 illik asılılıqdan sonra müstəqillik qazandılar. Onların bir hissəsi qərbə köç edərək qərb hunlarına qarışdılar. Bir hissəsi isə yenə Çinə tabe oldu. Bu tayfalardan çinlilər içərisində öz varlıqlarını qoruyub saxlayanlar sonralar qüdrətli *Göytürk dövlətinin* yaradılmasında mühüm rol oynadılar.



4. Şaman dua edərkən (*müasir şəkil*)

**Din və mədəniyyət.** Hunlar səma, yerüstü, yeraltı tanrılara və ruhlara inanırdılar. Ən ulu səma tanrıları *Günəş* və *Ay* tanrıları sayılırdı.

Qədim hunların inancına görə pis ruhlar yeraltı dünyanı idarə edən *Yerlik tanrıya* tabe idilər. Ruhlarla insanlar arasında münasibət yaradan adam *şaman* adlanırdı.

Hunlar dəfn zamanı ölənlərin qiymətli əşyalarını onların məzarına qoyurdular. Hun abidələrindən çoxsaylı maddi mədəniyyət nümunələri — kəmərlər, at əsləhələri və üzəri heyvan təsvirləri ilə bəzədilmiş silahlar tapılmışdır.

*Hunların mədəniyyəti və dini görüşləri ilə bağlı məlumatı təqdim edin.*



5. Türk yaşayış evi — «yurd»un daxili görünüşü




6. **a)** Ox ucluqları; **b)** qızıl kəmər; **c)** qızıl dəstəkli qılınc; **d)** qızıl dəstəkli xəncər; **e)** yay və ox

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. 220-ci il | Böyük Hun imperiyası yarandı. |
| * E.ə. 214-cü il | Böyük Çin səddinin inşasına başlandı. |
| * E.ə. 36-cı il | Qərb hunları Tanrı dağlarının şimalını, İssık gölünün ətrafını, Mərkəzi Asiyanı tutdular. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Hunlar hansı ərazilərdə yaşamışlar?
2. Hunların əsas məşğuliyyəti nə olmuşdur?
3. Hun tayfa ittifaqının başında kim dururdu?
4. Hunlarla çinlilər necə yaxınlaşdılar?
5. Böyük Çin səddi nə vaxt və hansı məqsədlə inşa olunmuşdu?
6. Hun imperatorluğu hansı səbəbdən parçalandı? İzah edin.



Hunların çinlilərlə münasibətləri haqqında müxtəlif mənbələrdən əlavə məlumat toplayın.

# 15. QƏDİM ÇİN

«Çinin bəlası», Sin Şixuandi, Böyük Çin səddi, Böyük İpək yolu, heroqlif, Konfutsi

**Təbiəti və əhalisi.** Çin, əsasən, dağlıq ölkədir. Onun ərazisindən böyük Xuanxe və Yantszı çayları axır. Xuanxe vadisinin torpaqları çox məhsuldar olduğundan burada insanlar sıx məskunlaşmışdılar. Xuanxe çayında güclü daşqınlar olurdu. Bu zaman çoxlu şəhər və kəndlər dağılır, böyük insan tələfatı baş verirdi. Ona görə də çinlilər Xuanxe çayını *«Çinin bəlası», «min fəlakət çayı», «gəzən çay»* adlandırırdılar.

Xuanxe çayının aşağı axarında əhali əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olurdu. Sənətkarlar ipək parçalar toxuyur, dulusçular ağ gildən zərif qablar istehsal edirdilər.

*E.ə. VI əsrdə* çinlilər dəmir emal etməyi öyrəndilər.

**Çinin birləşdirilməsi.** E.ə. IV—III əsrlərdə Çində bir neçə müstəqil quldar dövlət mövcud idi. Bu dövlətlər arasında tez-tez uzunsürən müharibələr baş verirdi. Ona görə də bu dövr Çin tarixində *«vuruşan padşahlıqlar dövrü»* adlanır.

Çin dövlətləri arasında gedən mübarizədə Sin padşahlığı qələbə çaldı. Sin padşahı bütün Çini birləşdirdi. *E.ə. 221-ci ildə* Sin dövlətinin padşahı ***imperator**** titulunu qəbul etdi. O özünü *Sin Şixuandi* (Çinin birinci imperatoru) adlandırdı.

Çindən şimalda hun tayfaları yaşayırdılar. Onlar tez-tez Çinə hücum edirdilər. Hunların hücumlarının qarşısını almaq üçün *Sin Şixuandi* Böyük Çin səddini tikdirməyə başladı. Səddin üstü ilə 5—6 süvari yanaşı hərəkət edə bilərdi.

Sin Şixuandi böyük dövləti idarə etmək üçün inzibati islahat keçirdi. O, ölkəni 36 vilayətə böldü.

*E.ə. 206-cı ildə* Sin sülaləsinin hakimiyyəti başa çatdı. İmperiyanı *Xan* nəslindən olan hökmdarlar idarə etməyə başladı.

*Qədim Çinin təbiətinin onun təsərrüfat həyatına təsirini izah edin.*



1. İlk Çin imperatoru — Sin Şixuandi *(müasir şəkil)*



2. Sin Şixuandinin məqbərəsindən tapılmış gil at və əsgər *(Sian, e.ə. III əsr)*

*Çin dövlətinin idarə olunması qaydalarını şərh edin.*

* ***İmperator*** — latınca «imperium» sözündən olub, tam hakimiyyətə malik olan deməkdir

a)
b)


3. a) Sin; b) Xan dövrünə aid tunc pullar

**İpək yolu.** Ticarət yolları o zaman mövcud olan bütün dövlətləri birləşdirirdi. Makedoniyalı İskəndərin Şərqə yürüşündən sonra dövlətlər və xalqlar arasında əlaqələr daha da genişləndi. Dünya ticarət yollarına *e.ə. II əsrdə* Çindən gələn ticarət yolu da qoşuldu. Bu yolla Yaxın Şərq ölkələrinə və Aralıq dənizi hövzəsinə Çindən ipək, gil qablar və s. məhsullar gətirilirdi. Bu mallar içərisində ipək əsas yer tuturdu. Odur ki, Çindən gələn karvan yolu *«Böyük İpək yolu»* adlanırdı. *E.ə. II əsrdə* İpək yolu Çindən Şimali Afrikaya və İspaniyaya qədər böyük ərazidə yerləşən bütün dövlət və xalqları birləşdirirdi. Bu yolun əsas xətlərindən biri də Azərbaycandan keçirdi. Bu yolla təkcə tacirlər getmir, Çin orduları da qarətçi yürüşlər edirdilər.

*Çin dövlətinin inkişafı və tənəzzülü dövrlərini fərqləndirin.*

**Çində xalq üsyanları.** *Eramızın I əsrinin əvvəllərində* müxtəlif vergilər və torpağın ağır şərtlərlə icarəyə verilməsi Çində güclü xalq üsyanlarının baş verməsi ilə nəticələndi. Bu üsyan tarixdə «*Qırmızıqaşlılar*» üsyanı adlanır. Üsyançılar seçilmək üçün qaşlarına qırmızı rəng çəkmişdilər.

*184-cü ildə* isə Çjan qardaşlarının başçılığı ilə böyük «*Sarısarıqlılar*» üsyanı baş verdi. Üsyançılar tanınmaq üçün başlarına sarı sarıq bağlamışdılar. «Sarısarıqlılar» üsyanı 20 il davam etdi və çox böyük çətinliklə yatırıldı. Bu üsyan Çin dövlətini zəiflətdi. Bir neçə il sonra padşah öldürüldü.



4. Üsyançılar döyüşdə
*(müasir şəkil)*

III əsrin əvvəllərində Xan sülaləsi devrildi. Çin yenidən xırda dövlətlərə parçalandı.

**Qədim Çinin mədəniyyəti.** Qədim Çində elm, incəsənət, heykəltəraşlıq və memarlıq inkişaf etmişdi. Yazıda heroqliflərdən istifadə olunurdu.


A)
QƏDİM ÇİN
BÖYÜK ÇİN SƏDDİ
QOBİ SƏHRASI
BÖYÜK ÇİN SƏDDİ
Sarı çay
Uyuan
Pekin
(Tszi)
Tsuylu
Sarı çay
SARI DƏNİZ
Loyan
Sian
Xuxanxe
Yantszı
Yantszı
Yunmen
U
İn
Çanşa
Linlin
ŞƏRQİ-ÇİN DƏNİZİ
Vadilər
Paytaxt şəhərlər
Şəhərlər
Ticarət yolları


B)
Səmərqənd
Turfan
Dunxan
İstanbul
QARA DƏNİZ
XƏZƏR DƏNİZİ
Təbriz
Qaşqar
Lançjou
Ksi-An
Tehran
ARALIQ DƏNİZİ
Qahirə
Şəhərlər
Böyük İpək yolu



5. Çində ipək istehsalı

Mətnlər bambuk lövhələr üzərində, mühüm sənədlər, imperatorun əmrləri isə ipək parça üzərində yazılırdı.

Çinlilər ilboyu təbiətdə baş verən dəyişiklikləri müşahidə edərək dəqiq təqvim düzəltmişdilər. Dənizçilərin və tacirlərin müşahidələri əsasında «Dağlar və dənizlər haqqında kitab» adlı coğrafi əsər yazılmışdı. İlk kompası da çinlilər yaratmışlar. Kağızın ixtirası da çinlilərin adı ilə bağlıdır.

*Konfutsi* adlı **filosofun*** yaratdığı təlim Çində geniş yayılmışdı. Konfutsi əxlaqi fikirlər irəli



6. Tısbağa çanağı üzərində heroqliflər *(e.ə. II minillik)*



7. Tunc kompas (*Xan dövrü*)



*Qədim Çinin mədəniyyətini dəyərləndirin.*



8. Qədim Çində uşaq əyləncə mərkəzi

* ***Filosof*** — müdrikliyi sevən adam, alim

sürərək deyirdi: *«Qəbahətlərimizi örtmək, gizlətmək hünər deyil, hünər qəbahət etməməkdir»*. Konfutsiyə görə, kiçik böyüyə, oğul ataya, xalq padşaha tabe olmalı, böyük kiçiyin, ata oğulun, padşah isə xalqın qayğısını çəkməlidir. Çin alimləri *«Bilici»* adını almaq üçün Konfutsi təlimindən imtahan verirdilər. Konfutsi təlimi həm insanların axirət dünyasına inamını, həm də əcdadların ruhuna olan sayğısını artırırdı.




9. Çin heroqlifləri

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. II minillik | Çində ilk dövlət yarandı. |
| * E.ə. IV—III əsrlər | Çin tarixində «vuruşan padşahlıqlar dövrü» adlanır. |
| * E.ə. 221-ci il | Sin dövlətinin padşahı imperator titulunu qəbul etdi. |
| * E.ə. 206-cı il | Sin imperiyası süqut etdi. |
| * I əsrin əvvəli | «Qırmızıqaşlılar» üsyanı baş verdi. |
| * 184-cü il | «Sarısarıqlılar» üsyanı baş verdi. |
| * III əsrin əvvəlləri | Xan sülaləsi devrildi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Çin ərazisində ilk dövlət nə vaxt və harada yaranmışdır?
2. İlk Çin dövlətini hansı qəbilələr yaratmışlar?
3. Sin padşahı nə vaxt imperator titulunu qəbul etdi?
4. Çin tarixində «vuruşan padşahlıqlar dövrü»nü xarakterizə edin.
5. Xan sülaləsinin hakimiyyəti hansı hadisədən sonra devrildi?
6. Konfutsi təliminin mahiyyətini söyləyin.
7. Çinin coğrafi mövqeyini təyin edin. Çin səddini və İpək yolunu kontur xəritə üzərində göstərin.



Çinin dünya mədəniyyəti xəzinəsinə hansı töhfələr verdiyini müəyyən edin.

## 16. QƏDİM HİNDİSTAN

Aşoka, kastalar, şahmat, Budda, «Veda», «Mahabharata», «Ramayana», daş darvaza



1. Qədim möhür *(Harappa, e.ə. III minillik)*

*Qədim Hindistanda iqtisadi inkişafı təsvir edin.*

**Təbiəti və əhalisi.** Hindistan yarımadası Asiya qitəsinin cənubunda yerləşir. Yarımadanın şimalında Himalay dağları ucalır. Hindistan yarımadası, əsasən, yaylalardan ibarətdir. Yayla ilə Himalay dağları arasında düzənlik yerləşir. Düzənliyin qərb hissəsində Hind, şərq hissəsində Qanq çayları axır. Hindistan ərazisi mis və dəmir yataqları ilə zəngindir.

İnsanlar Hindistanda ən qədim dövrlərdən məskən salmışlar. Burada e.ə. III minilliyə aid şəhərlərin (Mohenco-Daro və Harappa) xarabalıqları aşkar olunmuşdur. Onların hansı səbəbdən süqut etdiyi hələlik bizə (elmə) məlum deyil. E.ə. II minillikdə köçəri *ari tayfaları* Hindistana hərəkət etmiş və yerli əhali ilə qaynayıb-qarışmış, hind yarımadasındakı əhali bu tayfaların assimilyasiyasında yaranmışdır. Onlar əkinçiliklə məşğul olur, mal-qara sürüləri, at ilxıları saxlayırdılar. Hindlilər dəmir çıxarmağı və emal etməyi bacarırdılar. Burada taxıl, şəkər qamışı və pambıq yetişdirilir və pambıqdan zərif parçalar toxunurdu. Fillər əhliləşdirilir, onlardan təsərrüfat işlərində və döyüşlərdə istifadə edilirdi.



2. Xüsusi təlim görmüş döyüş filləri

**Hindistanın qədim dövlətləri.** Əmək məhsuldarlığının artması bərabərsizliyin yaranmasına səbəb oldu. Adlı-sanlı adamlar quldarlara çevrildilər. Onlar icmaçı kəndliləri və qulları istismar etməyə başladılar. Hindistanda qulları «*yad*», «*düşmən*» adlandırırdılar. Tayfa başçıları — *racələr* tədricən padşahlara çevrilirdilər. Beləliklə, e.ə. I minillikdə Hindistanda ilk dövlətlər meydana gəldi.

*Qədim Hindistan dövlətinin yaranması və inkişaf amillərini izah edin.*

# QƏDİM HİNDİSTAN





3. Padşah Aşoka

E.ə. IV əsrin 20-ci illərində Makedoniyalı İskəndər Hindistanın şimal-qərb hissəsinə hücum etdi. Makedoniyalılar burada əhalinin güclü müqavimətinə rast gəldilər. İskəndər yorulmuş əsgərlərin tələbi ilə geri dönmək məcburiyyətində qaldı.

Mauriya sülaləsinin nümayəndəsi *Aşoka* e.ə. III əsrin 2-ci yarısında bütün Hindistanı vahid dövlətdə birləşdirməyə nail oldu. Lakin onun ölümündən sonra yaratdığı dövlət dağıldı.

**Kastalar*.** Hindlilər arasında yaranmış bərabərsizlik onların dinində də öz əksini tapmışdı. Hindlilər inanırdılar ki, insanları yaradan baş tanrı *Brahma* onları əməllərinə görə kastalara




4. Hindistanda kastalar

* ***Kastalar*** — qəti müəyyənləşdirilmiş hüquq və vəzifələri olan insan qrupları

bölmüş, hüquq və vəzifələrini müəyyən etmişdir.

Brahma öz dodaqlarından kahinləri — *brahmanlar* kastasını yaratmışdır. Ona görə də onlar tanrı adından danışa bilərlər. Döyüşçülər ikinci kastaya daxil idilər. Tacir, sənətkar və əkinçilər üçüncü, nökər və qulluqçuların daxil olduğu şudralar isə dördüncü kastanı təşkil edirdi. Kastaya məxsusluq irsi idi. Brahmanın oğlu brahman, *şudranın* oğlu şudra olurdu. Bu kastalardan heç birinə daxil olmayan «*toxunulmaz*» *adamlar* da var idi. Toxunulmaz adamlar ən çirkli işləri görürdülər.

*Hindlilər arasında ictimai bərabərsizlik dində öz əksini necə tapmışdı? Təsvir edin.*

**Mədəniyyət.** Hindlilərin öz yazısı var idi. Onlar Finikiya əlifbası ilə də tanış olmuşdular.

Qədim hindlilərin etiqadları və dünyagörüşləri onların yaratdığı «*Mahabharata*» və «*Ramayana*» dastanlarında öz əksini tapmışdır.

Hindlilər, həm də elmə böyük töhfələr vermişlər. Hindlilərin ixtira etdiyi asan hesablama qaydası ən mühüm yenilik idi. Onlar sıfır rəqəmini tətbiq etdilər. Həmin rəqəmin köməyi ilə nəinki onluqları, yüzlükləri, həm də minlikləri ifadə etmək mümkün idi. Ərəblər hind rəqəmlərini mənimsəmiş, ərəblərdən isə avropalılar öyrənmişdilər.

*Hindistan mədəniyyətinin inkişaf xüsusiyyətlərini müəyyənləşdirin.*

Qədim Hindistanda memarlıq və heykəltəraşlıq da inkişaf etmişdi. Padşah Aşokanın dövrün-





5. Qədim Budda məbədi və daş darvaza *(Sançi kəndi, e.ə. I əsr)*

də möhtəşəm sütunları olan saray və məbədlər inşa olunmuşdu.



6. Daşdan yonulmuş dörd aslan heykəli *(e.ə. III əsr)*

Sütunlardan birinin üstündə daşdan yonulmuş dörd aslan heykəli dururdu. Bu aslanlar dünyanın dörd tərəfinə baxırdılar. Onlar sanki keşikçi kimi dövlətin sərhədlərini qoruyurdular.

E.ə. I əsrdə daşdan yonulmuş darvaza əsl incəsənət nümunəsidir. Qədim heykəltəraşlar bu darvazanı zəngin naxışlarla bəzəmişlər. Burada Hindistanın zəngin bitki və heyvanat aləmi, hind xalqının əfsanəvi qəhrəmanları təsvir olunmuşdu. Qədim hind memarları qayaları çaparaq sərdabələr, gözəl məbədlər yaratmış, heykəltəraşlar divarlarda insan və müqəddəs saydıqları heyvanların heykəllərini yonmuşlar.



7. Hind racəsi şahmat oynayarkən *(müasir şəkil)*

Azərbaycanın Tunc və İlk Dəmir dövrü abidələrində Hindistan üçün səciyyəvi olan bəzək əşyaları tapılmışdır. Bu, Azərbaycanın Qədim Hindistanla iqtisadi-mədəni əlaqələrinin olduğunu sübut edir.

Hindistan *şahmat* oyununun da vətənidir. Hindistanda bu oyunu «dörd növ qoşun» adlandırırdılar.

**Din.** Qədim hindlilərin dini etiqadları və qanunları «*Veda*» adlı yazılarda toplanmışdır. Qanunları pozanları ağır cəzalandırırdılar.

Hindistanda insanların kastalara bölünməsinə qarşı çıxanlar da var idi. Rəvayətə görə, onlardan biri — tayfa başçısının oğlu olan Quatama əyləncələrdən imtina edir, yoxsulların ağır vəziyyətinə acıyır. O, həyatın mənasını dərk etmək üçün çox düşünür və çox gənc yaşlarında



8. «Veda»dan fraqmentlər

evdən gedərək 6 il zahidlik edir. O, oruc tutur, yuxusuz gecələr keçirir, nəhayət, həyatın mənasını dərk edir və anlayır ki, insanların cəmiyyətdəki yeri onların mənşəyi ilə deyil, əməlləri ilə müəyyən olunur. Həyatın əzablarından qurtulmaq üçün insanlar nəfslərini boğmalı, xeyirxah işlər görməli və ədalətli olmalıdırlar. Buna görə də onu **Budda***, təlimini isə buddizm adlandırdılar.



9. Budda

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. III minillik | Hindistanda qədim şəhərlər yaranmışdır. |
| * E.ə. II minillik | Ari tayfaları Hindistanda məskunlaşdı. |
| * E.ə. III əsrin 2-ci yarısı | Hindistanda vahid dövlət yarandı. |
| * E.ə. I əsr | Hindistanda daş darvaza hazırlanmışdır. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Xəritədə Hindistanın yerləşdiyi ərazini göstərin.
2. Ari tayfaları Hindistana nə vaxt köç etmişlər?
3. Hindistanda dövlət nə vaxt meydana gəldi?
4. Makedoniyalı İskəndərin Hindistana yürüşünün yarımçıq qalmasının səbəbi nə idi? İzah edin.
5. Rəvayətə görə, Brahma kastaları necə yaratmışdır?
6. Hindistan mədəniyyətini dəyərləndirin.
7. Azərbaycanın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrinin olduğunu faktlarla sübut edin.
8. Şahmatın vətəni haradır?

«Qədim hindlilərin dünya elminə verdiyi töhfələr» mövzusunda esse yazın.

* ***Budda*** — həqiqətlə işıqlanmış, bilici deməkdir

QƏDİM YUNANISTAN

# 17. AVROPADA ƏN QƏDİM DÖVLƏT. QƏDİM YUNAN ŞƏHƏR-DÖVLƏTLƏRİ

Freska, akropol, aqora, dorilər, Afina, Sparta, demos, hilotlar, falanqa







1. Kritdə hökmdar sarayı:
*a) qalıqları;*
*b) bərpa olunmuş şəkli*

**Ərazisi və əhalisi.** Yunanıstanı üç dəniz — cənubdan Aralıq, qərbdən İon, şərqdən isə Egey dənizi əhatə edir.

Yunanıstan ərazisi üç hissəyə bölünmüşdür: Şimali, Orta və Cənubi Yunanıstan. Cənubi Yunanıstan, həm də *Peloponnes* adlanırdı. Şimali Yunanıstanla Orta Yunanıstanı Fermopil keçidi birləşdirir. Orta Yunanıstanla Cənubi Yunanıstan arasında isə Korinf körfəzi yerləşir. Yunanıstanın cənubunda ölkənin ən böyük adası sayılan Krit adası yerləşir.

**Krit padşahlığı.** Avropada ən qədim dövlət e.ə. III—II minilliklərdə Kritdə yaranmışdır.

Kritlilər əla gəmilər düzəldirdilər. Onlar möhtəşəm saraylar tikməyi bacarır, sarayların divarlarını **freskalarla*** bəzəyirdilər. Kritdə ticarət və hərbi donanma üçün xüsusi limanlar olmuşdur.



2. Öküzlə oyun
*(Krit. Qədim divar freskası)*



3. Krit. Sarayın daxili divarları
*(bərpa)*

* ***Freska*** — divarda xam mala üzərində çəkilmiş şəkil

# QƏDİM YUNANISTAN



Kritlilərin Misir və Finikiya ilə, həmçinin Finikiya vasitəsilə Babillə də geniş ticarət əlaqələri var idi. Kritlilərin öz yazısı mövcud idi. Krit mədəniyyətinə Şərq mədəniyyətinin böyük təsiri olmuşdur. E.ə. II minilliyin ortalarında Kritə yaxın olan adalardan birində vulkan püskürməsi nəticəsində Krit padşahlığı süqut etdi.



4. Qızıl maska *(Mikena)*



5. Mikena yazısı

Cənubi Yunanıstanda — *Mikena* şəhərində yaşayan *axey tayfaları* Krit mədəniyyətindən çox şeylər mənimsəmişdilər. Axeylər Mikenada hündür təpə üzərində **akropol*** ucaltmışdılar. Hökmdar sarayı və adlı-sanlı adamların evləri burada yerləşirdi. Sarayın yaxınlığında qayalarda sərdabələr çapılırdı. Dəfn olunanların üzlərinə qızıl maskalar taxılırdı. Sərdabələrə qızıl əşyalar, silahlar qoyulurdu. Akropolun ətrafında tacir evləri, sənətkar və əkinçilərin yoxsul komaları yerləşirdi.

E.ə. II minilliyin sonlarında Yunanıstanın şimalından gələn *dori tayfaları* Mikena mədəniyyətini məhv etdilər.

E.ə. VIII—VI əsrlərdə Orta Yunanıstanda Afina, Cənubi Yunanıstanda Korinf, Sparta, Egey dənizinin sahil və adalarında Milet, Efes, Rodos kimi şəhər-dövlətlər yarandı. Bu şəhər-dövlətlərin hər birinin öz akropolu var idi. Bunların içərisində ən gözəli və memarlıq abidələri ilə zəngin olanı Afina akropolu idi.



6. Afina akropolu *(müasir foto)*. Akropol UNESCO-nun dünya irsi siyahısına daxil edilmişdir.

**Yunanıstanda sosial-iqtisadi münasibətlər.** Akropolda yaşayan varlılar Afinanın əhalisini özlərinə tabe etmişdilər. Onlar özlərini *«aristokrat»*, yəni adlı-sanlı adam, idarə üsullarını isə *«aristokratiya»*, yəni «adlı-sanlıların hakimiyyəti» adlandırırdılar.

Əhali əkinçilik və maldarlıqla məşğul olurdu. Əhalinin digər

* ***Akropol*** — yuxarı şəhər

hissəsini **günəmuzdçular*** (sənətkarlar və dənizçilər) təşkil edirdi. Aristokratiyaya aid olmayan azad əhali *demos* adlanırdı. Afinada sənətkarlıq sahələri və incəsənət yüksək səviyyədə inkişaf etmişdi. Memarlar möhtəşəm binalar ucaldır, rəssamlar gözəl sənət nümunələri yaradırdılar. Dulusçular gildən müxtəlif məişət əşyaları və **amforalar*** düzəldirdilər. Bu qablarda şərab, zeytun yağı saxlanılırdı.



a) b)

7. a) qara fiqurlu amfora; b) qırmızı fiqurlu qab

Akropolun yanında **aqora*** yerləşirdi. E.ə. VII əsrdə Afinada gümüş pul da kəsilirdi.

Zaman keçdikcə Yunanıstanda qulların sayı artırdı. Bunu səbəblərindən biri kəndlilərin yoxsullaşması idi. Qıtlıq, quraqlıq illərində yoxsul kəndlilər öz ağalarından borc taxıl alırdılar. Sahibkarlar kəndlilərin torpaq sahəsində borc daşı qoyurdu. Bu daşın üzərində kəndlinin nə qədər borc aldığı və nə vaxt qaytarmalı olduğu yazılırdı. Kəndli borcunu vaxtında verə bilmədikdə ailəsi və özü qula çevrilirdi. Bundan başqa Afinaya ticarət gəmiləri ilə taxıl, inşaat ağacı ilə yanaşı, qullar da gətirilirdi.



8. Borc daşı

*Yunanıstan əhalisi arasında olan sosial-iqtisadi münasibətləri təsvir edin.*

**Demos ilə əyanlar arasında mübarizə.** E.ə. VII əsrdə Afinada bütün məsələləri aristokratlardan ibarət ağsaqqallar şurası həll edirdi. Bu şura qanunlar qəbul edir, məhkəmə bu qanunlar əsasında qurulurdu. Qanunlar daha çox aristokratların həyatını və əmlakını qoruyurdu. Ən kiçik günaha görə insanlara ağır cəzalar verilir, təqsirkar ölümə məhkum olunurdu. Ona görə deyilirdi ki, bu qanunlar *«mürəkkəblə deyil, qanla yazılmışdır»*. Həmin qanunlar aristokrat Drakon tərəfindən tərtib edilmiş və tarixdə də *«Drakon qanunları»* adı ilə məşhurdur.

* ***Günəmuzdçu*** — torpağı və daimi işi olmayan, yalnız gördükləri işə görə haqq alan adamlar
* ***Amfora*** — ikiqulplu, darboğazlı çox tutumlu iri gil qab
****Aqora*** — bazar meydanı



9. Afinada kəsilmiş gümüş pul

E.ə. VII əsrdə demosla aristokratlar arasında mübarizə kəskinləşdi. Xalq üsyanından qorxan aristokratlar güzəştə getməyə məcbur oldular.

E.ə. 594-cü ildə aristokrat, siyasətçi *Solon* islahatlar keçirdi. Bu islahatlara əsasən kəndlilərin borcları ləğv edildi. Borca görə qul edilən afinalılar azad olundu. Afinalıların gələcəkdə də borca görə qul edilməsi qadağan edildi. Bu islahatlar aristokratlarla demos arasındakı gərginliyi aradan qaldırdı. Orta Yunanıstanın vilayəti olan Attikanın kişi sakinləri Afina **vətəndaşı*** hüququnu aldılar. Bütün vətəndaşlar Afina xalq yığıncağında iştirak edirdilər. E.ə. VI əsrin sonlarından Afina xalq yığıncağı ordu və donanmaya başçılıq edən *strateqlər* seçməyə başladı.



10. Solon

**Sparta dövləti.** E.ə. II minilliyin sonunda Cənubi Yunanıstanın Lakonika vilayətini işğal edən dorilər burada *Sparta* şəhərinin əsasını qoydular və özlərini *spartalılar* adlandırdılar.

E.ə. VII əsrin ortalarında dorilər Cənubi Yunanıstanın ikinci vilayətini — Messeniyanı da tutdular. İtaət altına alınmış əhalinin bir hissəsini qula çevirdilər. Qulları *hilotlar* adlandırdılar.

*Sparta dövləti necə yarandı?*



11. Atlı döyüşçülər və piyadalardan ibarət falanqa

* ***Vətəndaş*** — qanunla müəyyən olunmuş hüquqlardan istifadə edən və dövlət qarşısında vəzifələr daşıyan adam

Lakonika və Messeniyada hilotlarla yanaşı, azad adamlar da var idi. Onlar spartalılara vergi verirdilər.

Spartalıların hamısı döyüşçü idi. Onların, hətta yatanda da silahları yanlarında olurdu. Hərbi qaydanı pozanlar, qorxaqlar sərt cəza alırdı. Sparta ordusu *falanqa* adlanırdı.



*Sparta dövlətinin necə idarə olunduğunu müəyyən edin.*

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. III—II minilliklər | Avropada ən qədim dövlət yarandı. |
| * E.ə. II minilliyin ortaları | Krit dövləti məhv oldu. |
| * E.ə. VIII—VI əsrlər | Yunanıstanda şəhər-dövlətlər yarandı. |
| * E.ə. VII əsr | Afinada pul kəsildi. |
| | Afinada bütün məsələləri aristokratlardan ibarət ağsaqqallar şurası həll edirdi. Demosla aristokratlar arasında mübarizə kəskinləşdi. |
| | Dorilər Messeniyanı tutdular. |
| * E.ə. 594-cü il | Solon islahatlar keçirdi. |
| * E.ə. VI əsrin sonu | Afinada strateqlər seçilməyə başlandı. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Aristokrat və demos kimlərə deyilirdi?
2. «Drakon qanunları» kimlərin mənafeyinə xidmət edirdi?
3. Aristokratlar hansı səbəbdən demosa güzəştə getməyə məcbur oldular?
4. Kimlər Afina vətəndaşı hüququnu aldılar?
5. Spartada qulları necə adlandırırdılar?
6. Xəritədə yunan şəhər-dövlətlərini göstərin.



Solon islahatlarının əhəmiyyəti haqqında yazın. Əgər siz onun yerində olsaydınız, nə edərdiniz?

# 18. YUNANLAR İŞĞALÇILARA QARŞI. AFİNA QULDARLIQ DEMOKRATİYASI

«Dəniz sahibləri», Marafon, Fermopil, Salamin, Plateya, quldarlıq demokratiyası, Perikl

*Yunan şəhər-dövlətlərinin coğrafi mövqeyini təsvir edin.*

*Yunan koloniyalarının yaranmasının səbəblərini müəyyənləşdirin.*

**Aralıq dənizi və Qara dəniz sahillərində yunan şəhər-dövlətlərinin yaranması.** Yunanlar vətənlərini *Ellada*, özlərini *ellinlər* adlandırırdılar. Onlar gəmi ilə İon, Egey və Aralıq dənizlərinə, hətta uzaq Qara dəniz sahillərinə qədər gedirdilər. Bu dəniz səfərlərinin nəticəsində e.ə. VIII—VI əsrlərdə Qafqazdan İspaniyayadək olan dəniz sahillərində yunan koloniyaları meydana gəlmişdi.

Torpağı əlindən alınmış kəndlilər, varlanmaq istəyən sənətkar və tacirlər koloniyalarda məskunlaşırdılar. Milet şəhərinin Qara dəniz sahillərində Pantikapey, Olviya və Xersones kimi koloniyalar yaranmışdı.

Hər bir koloniya ayrıca şəhər-dövləti idi. Hər şəhər-dövlətin öz hökmdarı, qoşunu, xəzinəsi və pulu var idi.

**Marafon döyüşü.** E.ə. 500-cü ildə yeni torpaqlar ələ keçirmək istəyən Əhəməni hökmdarı I Dara Yunanıstana hücum etdi.





1. Dəniz döyüşü



2. Miltiad

I Daranın qoşunları e.ə. 490-cı ildə Orta Yunanıstanda yerləşən Marafon düzənliyinə çıxdılar. Yunan ordusuna *Miltiad* başçılıq edirdi. O, mərkəzdə zəif, cinahlarda isə güclü dəstələr yerləşdirdi. Əhəməni qoşunu mərkəz üzərinə hücuma



keçərkən falanqalar cinahlardan onları əzdi. Əhəməni qoşunu məğlub oldu.

E.ə. 480-ci ildə I Daranın oğlu *Kserks* atasının Yunanıstanı işğal etmək niyyətini həyata keçirmək istədi. Sparta hökmdarı *Leonidin* başçılığı ilə yunan orduları Orta Yunanıstana gedən yolu — *Fermopil keçidini* ələ keçirdilər.



3. Leonid
*(Fermopil)*

Kserks Fermopilə yaxınlaşaraq yunanların yanına elçi göndərdi ki, onlar təslim olsunlar. Leonid təslim tələbini rədd etdi. Əhəməni qoşunu iki gün həmlə etdi. Qeyri-bərabər döyüşdə Leonid və döyüşçüləri həlak oldular. Əhəmənilər Orta Yunanıstanı tutdular.

**Salamin vuruşması.** Yunan hərb gəmiləri *triyera* adlanırdı. Hər bir hərbi gəminin sağ və sol hissəsində üç sıra avarçəkən olurdu. Onlar lazımi anda çeviklıklə gəminin istiqamətini dəyişə bilirdilər.

*Yunanların hərbi gəmilərini təsvir edin.*

E.ə. 480-ci ildə *Salamin* dəniz vuruşması baş verdi. Əhəməni hərbi gəmiləri qələbə çalacaqlarına inanaraq dar boğaza girdilər. Triyeralar ağır Əhəməni gəmilərinə nisbətən sürətlə hərəkət edirdilər. Yunan dənizçiləri onların avarlarını qırır, taran edərək yanlarını deşirdilər. Əhəməni donanması nizamı pozulduğundan gah bir-birinə dəyir, gah da sualtı qayalara toxunub parçalanırdılar. Bu döyüşdə Əhəməni donanması məğlub oldu.



4. Salamin körfəzində döyüş

**Plateya döyüşü.** E.ə. 479-cu ildə Plateya şəhəri yaxınlığında Əhəmənilərin qalan qüvvələri ilə yunanlar arasında döyüş baş verdi. Bu döyüşdə yunanlar qalib gəldilər. Lakin dəniz döyüşləri fasilələrlə daha 30 il ərzində davam etdi. Ona görə də yunan şəhər-dövlətləri öz arala-

rında ittifaq yaratdılar. Bu ittifaqa Afina başçılıq edirdi. *Afina dəniz ittifaqı* Əhəməni donanmasını məğlubiyyətə uğratdı. Müharibələr yunanların qələbəsi ilə başa çatdı. Əhəmənilər Egey dənizi adalarında və Kiçik Asiyada olan yunan şəhərlərinin müstəqilliyini tanımağa məcbur oldular. Onların hərbi donanmasına Egey dənizində üzmək qadağan edildi. Yunanıstan Aralıq dənizi hövzəsində hakim dövlətə çevrildi. Bundan sonra afinalıları «*dəniz sahibləri*» adlandırmağa başladılar.

*Yunanlarla Əhəmənilər arasında döyüşlərin baş-vermə ardıcıllığını müəyyən edin.*

**Afina quldarlıq demokratiyası.** E.ə. V əsrdə Afina Yunanıstanın ən güclü və ən varlı şəhərdövləti olmuşdu. Afinada ali hakimiyyət xalq yığıncağına məxsus idi. Yığıncaq qanunlar qəbul edir, strateq və başqa vəzifəli şəxsləri seçirdi. Müharibə və sülh məsələləri də xalq yığıncağında həll olunurdu. Xalq yığıncağında 20 yaşdan başlayaraq bütün azad Afina vətəndaşları (kişilər) iştirak edə bilərdilər.

E.ə. 443-cü ildə xalq yığıncağı strateq vəzifəsinə varlı ailədən olan *Perikli* seçdi. Perikl ömrünün sonuna kimi, 15 il ərzində hər il birinci strateq seçilirdi. Onun dövründə yoxsul vətən-



5. Perikl

*Afina quldarlıq demokratiyasında idarəetmə qaydalarını təsvir edin.*



6. Afinada xalq yığıncağı

daşlar bütün vəzifələri tuta bilərdilər. Afinada dövlətin bu cür idarə olunması «demosun hakimiyyəti» demək idi. Bu, quldarlıq demokratiyası adlanırdı.

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. VIII—VI əsrlər | Qafqazdan tutmuş İspaniyayadək yunan koloniyaları salındı. |
| * E.ə. 490-cı il | Marafon döyüşü oldu. |
| * E.ə. 480-ci il | Fermopil döyüşü oldu. |
| | Salamin dəniz vuruşması oldu. |
| * E.ə. 479-cu il | Plateya döyüşü oldu. |
| * E.ə. 443-cü il | Perikl strateq seçildi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Yunanlar hansı ərazilərdə koloniyalar salmışlar? Xəritədə göstərin.
2. Yunan donanması Əhəməni donanmasından hansı üstünlükləri ilə seçilirdi?
3. Yunan və Əhəmənilər arasında hansı döyüşlər olmuşdu? Nəticələri söyləyin.
4. Əhəmənilərə qarşı dəniz döyüşlərində yunanların qələbə çalmasına nə səbəb oldu?
5. Yunanıstan Aralıq dənizi hövzəsində hansı üstünlüklərə nail oldu?

Öz vətənlərinin müdafiəsi zamanı yunanların göstərdikləri şücaət haqqında hekayə qurun.

### BUNU BİLMƏK MARAQLIDIR

Yunan döyüşçülərindən biri Marafon düzənliyindən Afinaya qədər olan 42 kilometrlik yolu qaçaraq Əhəmənilər üzərindəki qələbənin xəbərini xalqa, şəhərə çatdırmış və ölmüşdü. Marafon qaçışı ilk dəfə Yunanıstanda həmin döyüşçünün şərəfinə yaranmış və sonradan dünya dövlətlərinə yayılmışdır.

# 19. QƏDİM YUNANISTAN MƏDƏNİYYƏTİ

Homer, stil, teatr, tragediya, komediya, Olimpiya oyunları

E.ə. VIII əsrdə Yunanıstanda kor şair Homer yunanların tarixini əks etdirən *«İliada»* və *«Odisseya»* dastanlarını yaratdı. İki əsr müddətində şifahi şəkildə söylənən bu dastanlar e.ə. VI əsrdə yazıya alındı.

**Qədim Yunanıstanda din.** Bütün qədim xalqlar kimi, yunanlar da inanırdılar ki, təbiəti tanrılar idarə edir və onlar Olimp dağının zirvəsində, dəbdəbəli saraylarda yaşayır. Üç qardaş – *Zevs, Poseydon* və *Aid* dünya üzərində hakimiyyəti öz aralarında bölmüş: Zevs göydə, Poseydon dənizdə, Aid isə yeraltı ölülər səltənətində hökmranlıq edir.

Yunanların təsəvvürlərinə görə, *Helios* günəş tanrısı, *Apollon* işıq və incəsənət tanrısı idi. *Demetra* əkinçilik və məhsuldarlıq ilahəsi, *Dionis* şərabçılıq tanrısı, *Hefest* dəmirçilərin, *Hermes* isə ticarət işlərinin himayəçisi idi.

**Məktəb.** Afinada uşaqların təhsil alması üçün məktəblər açılmışdı. Azad yunanların övladları 7 yaşından bu məktəblərə gedirdilər. Onlar hərfləri *stil* adlanan itiuclu metal çubuqla üzərinə mum çəkilmiş lövhələrdə cızırdılar. Stilin o biri ucu küt idi. Bununla yazılanı pozurdular.

**Teatr.** Yunanıstanda şərabçılıq tanrısı Dionisin şərəfinə təntənəli bayramlar keçirilirdi. Dionislə bağlı əfsanələr söyləyir, bu əfsanələrdən səhnələr oynayırdılar. Əvvəllər tamaşalar açıq havada, təpənin ətəyində göstərilirdi. Tamaşaçılar təpənin yamacında yer tutub otururdular. Təpənin ətəyində **skena*** qurulurdu. Çadırda aktyorlar paltarlarını dəyişirdilər. Sonra çadır əvəzinə, kiçik bina tikdilər. Tamaşa vaxtı binada **dekorasiyalar*** asılırdı. Binanın qarşısında

*«Yunanıstanda çoxtanrılıq» haqqında danışın.*



1. Homer



2. Zevs

* ***Skena*** — yunan dilində «çadır» deməkdir
* ***Dekorasiya*** — səhnə bəzəyi

aktyorların və xorun çıxış etməsi üçün meydança — *orxestra* düzəldirdilər.



3. Yunanıstanda teatr
*(müasir foto)*

*«Yunanıstan **teatrın*** ilk vətənidir» ifadəsinin yaranmasının səbəbini izah edin.*

E.ə. V əsrin sonlarında bütün yunan şəhərlərində tamaşa göstərmək üçün açıq hava teatr salonları tikilmişdi. Qədim yunan əfsanələri əsasında **tragediyalar*** adlanan pyeslər yaranmışdı. *Esxil, Sofokl* ilk tragediya müəllifləri idilər. Afina teatrında Esxilə və Sofokla heykəl qoyulmuşdu.

Gülməli səhnəciklərdən şən və məzəli pyeslər — *komediyalar* yarandı. Komediya «şən sakinlərin mahnısı» deməkdir.

**Memarlıq və heykəltəraşlıq.** Hər bir yunan şəhərində ictimai binalar, məbədlər, məktəblər, teatrlar tikilir və heykəllər ucaldılırdı. Afinanın baş meydanı *aqora* idi.

Aqoranın bir hissəsində ticarət köşkləri, digərində hökumət binaları, məbədlər yerləşirdi.

Afinanın akropol adlanan hissəsində Yunanıstan memarlığının möcüzəsi hesab edilən gözəl binalar tikilmişdi. Bunlardan ən möhtəşəmi ilahə Afinanın şərəfinə tikilən *Parfenon məbədi* idi.

Yunan memarlığında *dorik, ionik, korinf* sütunlardan və *portiklərdən* (çardaq) geniş istifadə olunurdu.

Yunanıstanda heykəltəraşlıq da inkişaf etmişdi. Məşhur memar və heykəltəraş *Fidi* ilahə Afinanın 12 metr hündürlüyündə qızıldan və fil

a) b) c)



4. a) dorik;
b) ionik;
c) korinf sütunları

*Yunan memarlığının möcüzələrini təsvir edin.*

* ***Teatr*** — yunanca tamaşa göstərilən yer
* ***Tragediya*** — adətən, qəhrəmanın ölümü ilə nəticələnən dramatik əsər



5. Qədim yunan məbədlərinin portiki *(müasir foto)*

sümüyündən lövhələrlə işlənmiş heykəlini düzəltmişdi.

**Elm.** Milet, habelə Egey dənizinin şərq sahillərində yerləşən İoniya vilayətinin digər şəhərləri Yunanıstanın elm mərkəzlərinə çevrilmişdi.

Adları müasir dövrümüzə qədər gəlib çıxmış o dövrün alimləri Demokrit, Hippokrat, Herodot və Aristotel elmə öz töhfələrini verdilər.

Afinalı *Demokrit* bütün dünyanın ən xırda zərrəciklərdən — atomlardan ibarət olduğunu söyləyirdi.

Həkim *Hippokratın* və onun şagirdlərinin düzgün qidalanma, dərmanlar və cərrahiyyə əməliyyatları haqqında əsərləri tibbin inkişafına böyük töhfə oldu.

E.ə. V əsrdə tarix elminin əsası qoyuldu. *Herodot* yunan—İran müharibələrinin tarixini yazdı. Herodotun «Tarix» kitabı Yunanıstan, Ön Asiya və Misirin, eləcə də Azərbaycanın qədim tari-

*Dünya elm xəzinəsinə töhfə verən yunanıstanlı şəxsiyyətləri müəyyənləşdirin.*



6. Demokrit



7. Hippokrat



*«İlk Olimpiya oyunlarının vətəni Yunanıstandır» ifadəsini izah edin.*



8. Herodot



9. Aristotel

xini öyrənmək üçün qiymətli mənbələrdən biridir. Herodotu bu gün də *«Tarixin atası»* adlandırırlar.

*Aristotel* bütün elmi bilikləri ayrı-ayrı sahələr üzrə böldü və onlara botanika (yunanca bitki), fizika (təbiət), politika və s. ayrı-ayrı adlar verdi.

**Olimpiya oyunları.** Qədim Yunanıstanda dörd ildən bir keçirilən idman yarışlarını *Olimpiya oyunları* adlandırırdılar. Yarışlarda, əsasən, varlılar iştirak edirdilər. Qadınlara Olimpiya oyunlarına getmək qadağan idi. Bu qaydanı pozan qadına ölüm cəzası verilirdi.

Olimpiya oyunları zamanı Yunanıstanda müharibələr dayandırılırdı.

Yarış qaliblərini zeytun ağacının budaqlarından hörülmüş çələnglə mükafatlandırırdılar. Vətənlərində isə onlara heykəl qoyulurdu.

Yunanlar il hesabını ilk Olimpiya oyunlarının keçirildiyi tarixdən hesablayırdılar. Rəvayətə görə, ilk Olimpiya oyunları e.ə. 776-cı ildə keçirilmişdir. Qədim Yunanıstanda olduğu kimi, indi də hər dörd ildən bir Olimpiya oyunları keçirilir.

Yunan yazısı bir sıra əlifbalar, o cümlədən latın və kiril əlifbaları üçün əsas olmuşdur. Bir çox yunan sözləri müasir dillərə, eləcə də Azərbaycan dilinə keçmişdir. Məsələn, gimnaziya, xor, tragediya, komediya, orkestr, xronologiya və s.





10. Olimpiya oyunları

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. VIII əsr | Homer «İliada» və «Odisseya» dastanlarını yaratdı. |
| * E.ə. 776-cı il | İlk Olimpiya oyunları keçirildi. |
| * E.ə. V əsrin sonları | Yunanıstanda açıq hava teatrları tikildi. |
| * E.ə. V əsr | Yunanıstanda tarix elminin əsası qoyuldu. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. «İliada» və «Odisseya» poemalarını kim yaratdı?
2. Yunanıstanda ilk teatr tamaşaları necə yarandı?
3. Afina akropolunu təsvir edin.
4. Yunan memarlığında hansı uğurlar qazanılmışdı?
5. Yunanıstanda elmin inkişafı kimlərin adı ilə bağlı idi?
6. «Azərbaycan Olimpiya oyunlarında» adlı təqdimat hazırlayın.

«Dünya mədəniyyəti xəzinəsinə Qədim Yunanıstanın töhfəsi» haqqında təqdimat hazırlayın.

## 20. YUNAN ŞƏHƏR-DÖVLƏTLƏRİNİN TƏNƏZZÜLÜ. MAKEDONİYA DÖVLƏTİNİN GÜCLƏNMƏSİ

Makedoniyalı İskəndər, Qranik, İss, Qavqamel döyüşləri, Faros mayakı

*Yunan şəhər-dövlətlərinin Makedoniyanın hakimiyyəti altına düşməsinin səbəbini izah edin.*

**Yunan şəhər-dövlətlərinin tənəzzülü.** Yunan şəhər-dövlətləri arasında çoxlu qənimət ələ keçirmək, dəniz ticarətində üstünlük qazanmaq üçün rəqabət gedirdi. Bu rəqabət Yunanıstanın iki ən qüdrətli şəhər-dövləti Afina ilə Sparta arasında uzunsürən müharibəyə səbəb oldu. E.ə. 431-ci ildə başlanan müharibə kiçik fasilələrlə e.ə. 404-cü ilə qədər davam etdi. Sparta qələbə çaldı. Bu müharibələr nəticəsində yunan şəhər-dövlətləri zəiflədi və sonralar qonşu Makedoniyanın hakimiyyəti altına düşdü.



**Makedoniya dövləti. II Filipp.** Makedoniya Balkan yarımadasının şimalında yerləşirdi. E.ə. IV əsrin ortalarında, II Filippin hakimiyyəti dövründə Makedoniya qüdrətli dövlətə çevrildi. II Filipp güclü nizami ordu yaratmışdı.

II Filipp zəifləmiş yunan şəhər-dövlətlərini tutmaq üçün müxtəlif üsullardan istifadə edirdi. Bir çox hallarda o, şəhər əhalisinin bir hissəsini pulla ələ alır, onlar da şəhər darvazalarını makedoniyalılar üçün açırdılar. E.ə. 338-ci ildə Xeroneya şəhəri yaxınlığında II Filipplə yunan orduları arasında həlledici döyüş oldu. Xeroneya döyüşü yunan şəhər-dövlətlərinin azadlığına son qoydu. II Filippin 18 yaşlı oğlu *İskəndər* bu döyüşdə ilk dəfə sərkərdəlik məharətini nümayiş etdirdi.



1. II Filipp

*Nə üçün Xeroneya döyüşü yunan şəhər-dövlətlərinin azadlığına son qoydu? İzah edin.*





2. Makedoniyalı İskəndər

**Makedoniyalı İskəndər və onun Şərqə yürüşü.** II Filipp öz dövlətinin ərazilərini genişləndirmək istəyirdi. Lakin yürüş ərəfəsində o, sui-qəsd nəticəsində öldürüldü. Atasının ölümündən sonra 20 yaşlı İskəndər (e.ə. 336—323) hökmdar elan edildi.

Makedoniya ordusu İskəndərin başçılığı ilə Şərqə hərəkət etdi. E.ə. 334-cü ildə *Qranik* döyüşündə İskəndər Əhəməni ordusunu məğlub etdi. E.ə. 333-cü ildə isə *İss* döyüşündə İskəndərin ordusu III Daranın muzdlu döyüşçülərini məğlub edərək, Aralıq dənizi sahili ilə Misirə doğru hərəkət etdi. Finikiyanın Tir şəhərində ciddi müqavimətlə rastlaşdı, lakin bu müqaviməti az bir zamanda qıraraq şəhəri ələ keçirdi və işğal etdi.

*Makedoniyalı İskəndərin yürüşlərini təsvir edin.*



3. Makedoniyalı İskəndər Əhəməni hökmdarı II Kirin mavzoleyi qarşısında. *Rəssam Pyer Anri de Valansen. 1750–1819*

Finikiyanın digər şəhərləri və Misir İskəndərə döyüşsüz tabe oldular. Misir kahinləri İskəndəri firon və tanrı adlandırdılar.

Bundan sonra İskəndər Mesopotamiyaya doğru hərəkət etdi. Əhəməni padşahı III Dara İskəndərə qarşı böyük ordu toplamışdı.

Həlledici döyüş e.ə. 331-ci ildə *Qavqamel* adlı yerdə baş verdi. Qavqamel döyüşündə də İskəndər qalib gəldi. Əhəməni hökmdarı III Dara ölkənin şərqinə qaçdı.

III Dara e.ə. 330-cu ildə özünün Baktriyadakı satrapı Bess tərəfindən öldürüldü. Beləliklə, nəhəng Əhəmənilər imperiyası süqut etdi.

E.ə. 327-ci ilin sonunda İskəndər 120 minlik qoşunla Hindistan üzərinə yürüşə başladı. Qanlı döyüşlərdən sonra o, Hind çayına qədər irəlilədi. Çoxsaylı hind qoşununa qalib gələrək geniş ərazilər qət etdi. İskəndər eşitmişdi ki, Şərqdə onun ordusunun dayandığı yerdən 12 günlük məsafədə çox bərəkətli sahilləri olan Qanq çayı axır. O, bu torpaqları görməyə can atırdı. Lakin uzun müddət öz vətənlərindən uzaqda olan və müharibələrdən yorulan əsgərləri yürüşü davam etdirmək istəmədilər. Əsgərlərinin döyüşlərdən və uzun yollardan yorulduğunu nəzərə alan böyük sərkərdə Hindistanın çətin keçilən ərazilərində itkilərinin çox olacağını düşünərək Makedoniyaya qayıtmağa qərar verdi və Hindistanın fəthini yarımçıq qoyub geri döndü. Yolda qızdırma ilə müşayiət olunan xəstəliyə tutulması ona Makedoniyaya çatmağa imkan vermədi. E.ə. 323-cü ildə İskəndər 33 yaşında, elə yoldaca vəfat etdi.

*İskəndərin Hindistanın fəthini yarımçıq qoymasının səbəbini izah edin.*

**Makedoniyalı İskəndərin imperiyası və onun parçalanması.** Makedoniyalı İskəndər böyük imperiya yaratmışdı. Bu imperiya Balkan yarımadası və Misirdən başlayaraq Hindistana qədər böyük bir ərazini əhatə edirdi. Lakin ölümündən bir qədər sonra bu böyük imperiya ayrı-ayrı padşahlıqlara parçalandı.

*Makedoniyalı İskəndərin imperiyası hansı ərazini əhatə edirdi? Xəritədə göstərin.*




Makedoniyalı İskəndərin imperiyasının parçalanması

İskəndərin yürüşləri Şərq ölkələrinin mədəni həyatında böyük dəyişikliklərə səbəb oldu. İşğal etdiyi Şərq ölkələrində onun adını daşıyan çoxsaylı şəhərlər salınmışdı. Bu ərazilərdə yunan dili və yunan mədəniyyəti geniş yayılmışdı. Nilin deltasında onun şərəfinə salınmış İskəndəriyyə şəhəri xüsusilə məşhur idi. Şəhərin qarşısındakı Faros adasında hündürlüyü 140 metr olan *mayak* tikilmişdi. Bu mayak dünyanın 7 möcüzəsindən biri hesab edilirdi.

İskəndəriyyə şəhəri, həm də bazarları ilə məşhur idi: burada Avropa, Asiya və Afrika ölkələrindən gətirilən müxtəlif məhsullar satılırdı.



4. Evklid



5. Arximed



6. Perqament üzərində yazı

İskəndəriyyədə gözəl saraylar və məşhur **musey*** var idi. İskəndəriyyə museyində papirus və **perqament*** üzərində yazılmış 700 min əlyazması saxlanılırdı.

İskəndəriyyə museyində *Evklid* və *Arximed* kimi böyük alimlər də işləmişdir.

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. 431—404-cü illər | Afina—Sparta müharibələri. |
| * E.ə. 338-ci il | Xeroneya döyüşü. |
| * E.ə. 336—323-cü illər | Makedoniyalı İskəndərin hakimiyyət illəri. |
| * E.ə. 334-cü il | Qranik döyüşü. |
| * E.ə. 333-cü il | İss döyüşü. |
| * E.ə. 331-ci il | Qavqamel döyüşü. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Yunan şəhər-dövlətləri arasında yaranmış ziddiyyətlərin səbəbləri nə idi?
2. Makedoniyalı İskəndərin qalib gəldiyi döyüşləri xronoloji ardıcıllıqla söyləyin və yerləri xəritədə göstərin.
3. Əhəmənilər imperiyası nə vaxt, hansı səbəbdən süqut etdi?
4. Makedoniyalı İskəndər imperiyası hansı əraziləri əhatə edirdi? Xəritədə göstərin.
5. İskəndəriyyə şəhərini təsvir edin.
6. Cədvəli tamamlayın:

| | | | |
|---|---|---|---|
| Zaman | | | |
| İskəndər və Əhəmənilər arasında baş verən döyüşlər | | | |

«Makedoniyalı İskəndər görkəmli tarixi şəxsiyyətdir» mövzusunda təqdimat hazırlayın.

* ***Musey*** — muzaların məbədi deməkdir; yunan əsatirində elm və incəsənətə himayədarlıq edən ilahələr muza adlanırdılar

* ***Perqament*** — yazı yazmaq üçün xüsusi işlənmiş buzov və quzu dərisi

# QƏDİM ROMA

## 21. QƏDİM ROMA RESPUBLİKASININ YARANMASI

Patrisi, plebey, senat, konsul, tribun, qladiator, respublika, Qrakx qardaşları, Spartak

*Roma dövlətinin yaranması və onun inkişaf mərhələlərini müəyyən edin.*

**Roma dövlətinin yaranması.** Roma dövləti Apennin yarımadasında yaranmışdır. Yunanlar Aralıq dənizində üzərkən Apennin yarımadasının cənub hissəsinin zəngin otlaqlarını görmüş və buranı *İtaliya*, yəni *«buzovlar ölkəsi»* adlandırmışdılar.

E.ə. I minilliyin əvvəllərində Apennin yarımadasında müxtəlif tayfa və xalqlar yaşayırdılar. Onların arasında ən çox inkişaf etmiş xalq *etrusklar* idi.



1. Rem və Romul onları bəsləyən ana canavarla

Rəvayətə görə, Roma şəhərinin əsası e.ə. 753-cü ildə iki qardaş — Romul və Rem tərəfindən qoyulmuşdur. Şəhər Romulun adı ilə adlanmışdır.

Romanın tarixi padşahlıq, **respublika*** və imperiya dövrlərinə bölünür.

**Padşahlıq dövrü.** Padşahlıq dövrü Roma şəhəri yaranandan e.ə. 509-cu ilə qədər davam etmişdir.

Romanın ən qədim sakinlərinin nəslindən olanlar özlərini *patrisilər* (latın dilindəki pater — ata sözündən götürülmüşdür) adlandırırdılar.

Patrisilərin «ağsaqqallar şurası» var idi. Bu şura latın dilində *«senat»*, onun üzvləri senator adlanırdı. Senatorlar öz sıralarından bir nəfəri ömürlük padşah seçirdilər.

Romaya sonradan köçüb gələnlərə *plebeylər* deyilirdi. Onlar orduda xidmət edirdilər.

E.ə. 509-cu ildə Romada respublika quruluşu yaradıldı.

* ***Respublika*** — latın dilində xalqın işi, xalqın hakimiyyəti deməkdir




**Roma Respublikasının ərazisi:**

b.e.ə. 6-cı əsrin sonunda;

b.e.ə. 3-cüəsrin ortalarında (Pun müharibələrinin başlanğıcına yaxın);

Romalıların məskən saldığı ərazilər;

Pun müharibələrinin başlanğıcına yaxın karfagenlilərin torpaqları.



*Roma Respublikasının idarə edilməsi qaydalarını təsvir edin.*

Respublika dövründə senatın nüfuzu artdı. Senat maliyyə işlərinə baxır, müharibə və sülh məsələlərini həll edirdi. Romada hər il patrisilərin arasından iki *konsul* seçilirdi. Konsullar 1 il ərzində Romanı idarə edir, müharibə zamanı isə ordu komandanı olurdular.

Respublika qurulandan sonra da hüquqsuz qalan plebeylər orduda xidmət etməkdən imtina etdilər. Patrisilər plebeylərsiz ordunun zəif olacağını başa düşərək onlara güzəştə getdilər. E.ə. V əsrin əvvəlində plebeylər öz müdafiəçilərini — *xalq tribunlarını* seçmək hüququ qazandılar. Tribun senatın və konsulun plebeylərə aid göstərişlərini ləğv etmək hüququna malik idi. Bunun üçün onun **«veto»*** sözünü deməsi kifayət idi. Xalq tribununu öldürmək ən ağır cinayət sayılırdı.

Patrisilərlə plebeylər arasında 200 ildən çox (e.ə. 509—265-ci illər) davam edən mübarizədən sonra plebeylər Romanın tamhüquqlu vətəndaşları oldular. Hər bir Roma vətəndaşı istədiyi vəzifəni tuta bilərdi. Lakin vəzifəyə görə əmək-haqqı verilmədiyi üçün yoxsullar vəzifə tutmaq istəmirdilər.



2. Roma senatında yığıncaq

* ***Veto*** — latın dilində «qadağan edirəm» deməkdir

Bu dövrdə Romanın ordusu ***legionlardan****
təşkil olunmuşdu. Legionun əsas gücü ağır silahlı piyadalardan ibarət idi. Onlar nizə və qılıncla silahlanır, zirehli paltar geyinirdilər. Süvari qoşun hissələri piyadaları cinahlardan qoruyur, qaçan düşməni təqib edirdilər.



3. Roma döyüşçüsü

Güclənmiş romalılar Cənubi İtaliyadakı yunan şəhərlərini də tutaraq yarımadanın bütün ərazisinə sahib oldular. Onlar tabe etdikləri tayfaları *«Parçala və hökmranlıq et!»* siyasəti yürüdərək idarə edirdilər. Bütün İtaliyanı tutduqdan sonra Roma Siciliya adasını da ələ keçirmək istədi. Bu adanı Şimali Afrikada yerləşən güclü Karfagen dövləti də işğal etməyə çalışırdı. Buna görə də Karfagenlə Roma arasında e.ə. 264— 146-cı illərdə fasilələrlə davam edən müharibələr baş verdi. Romalılar karfagenliləri *punlar* adlandırdıqlarına görə bu müharibə tarixə *Pun müharibələri* adı ilə daxil oldu.

*Roma ordusu hansı torpaqları tutdu? Müəyyənləşdirin.*

Pun müharibələrinin gedişində Sardiniya, Korsika adaları Roma tərəfindən işğal olundu. Karfagen şəhəri tamam dağıdılıb yandırıldı. Roma senatının qərarı ilə Karfagen Romanın əyaləti elan edildi.



4. Karfagen şəhəri *(müasir şəkil)*

* ***Legion*** — qoşun hissəsi


BRİTANİYA
Londini (London)
ATLANTİK OKEANI
GERMAN TAYFALARI
Elba
Lütesiya (Paris)
Aleziya
QALİYA
Reyn
ALP DAĞLARI
Tolet (Toledo)
İSPANİYA
Saqunt
Korduba (Kordova)
Yeni Karfagen
Tibr
Roma
Kanna
ARALIQ DƏNİZİ
Karfagen
Sirakuz
Zama
Pun müharibələri başlandığı zaman Roma Respublikasının ərazisi (e.ə. 264-cü il)
E.ə. III əsrin ortasından e.ə. 74-cü ilədək Roma Respublikasının istilaları
E.ə. 74-cü ildən e.ə. 30-cu ilədək Roma Respublikasının istilaları

# ROMA İMPERİYASININ ƏRAZİSİ
(E.ə. III əsr — b.e.-nın II əsri)





5. Triumf



6. Romada qul bazarı

E.ə. 146-cı ildə Yunanıstan da Romanın itaəti altına düşdü. Şəhərlər ələ keçirildikdən sonra qalib sərkərdə qarət üçün onu döyüşçülərin ixtiyarına verirdi. Qənimətin bir hissəsi Roma xəzinəsinə verilirdi. Qalib sərkərdə ***triumfla**** dörd ağ at qoşulmuş arabada Romaya daxil oldu. İşğal olunmuş əraziləri canişinlər idarə edirdi.

**Romada qulların vəziyyəti.** Hərbi əsirlər və işğal olunmuş ərazilərin dinc əhalisi qul edilib satılırdı. Romalılar qulları *«danışan əmək alətləri»* adlandırırdılar. Ən böyük qul bazarı Egey dənizindəki Delos adasında yerləşirdi.

Romada e.ə. III əsrdən başlayaraq ***qladiator**** döyüşləri keçirilirdi. Çevik və güclü qullara xüsusi məktəblərdə silah işlətməyi öyrədir, onları bir-biri ilə vuruşmağa məcbur edirdilər. Belə qulları *qladiator* adlandırırdılar. Bayramlarda ***arenada**** qladiatorlar arasında döyüşlər keçirilirdi. Məğlub edilən, lakin sağ qalan qladiatorun taleyi tamaşaçılardan asılı idi. Onlar baş barmaqlarını qaldırırdılarsa, məğlub olan qladiator sağ qalırdı. Baş barmaqlarını aşağı saldıqda isə o, qalib gələn qladiator tərəfindən öldürülürdü.

*Romada qullara münasibəti təsvir edin.*

**Xalq tribunları.** E.ə. 133-cü ildə xalq yığıncağı Qrakx qardaşlarından *Tiberini* xalq tribunu

* ***Triumf*** — zəfər, qalib sərkərdə öz qoşunu, ələ keçirdiyi qənimətlər və əsirlərlə birlikdə 4 ağ at qoşulmuş araba ilə zəfər tağının altından keçir
* ***Qladiator*** — latınca «qladius» sözündən olub, qılınc deməkdir
* ***Arena*** — qumla örtülmüş mərkəzi döyüş meydanı



7. Qladiator döyüşləri

seçdi. O, yeni torpaq qanunu təklif etdi. Çünki Romada kəndlilərin çoxu torpaqsız idi. Tiberi- təklif edirdi ki, varlı romalıların istifadə etdiyi torpaqların ölçüsünə məhdudiyyət qoyulsun. Bu ölçü qanunla müəyyən edilsin. Qalan torpaqlar isə yoxsullara paylansın və həmişəlik onların ixtiyarına verilsin. Bu torpaqların satılıb-alınması qanunla qadağan edilsin. Lakin senat bu təklifi qəbul etmədi. Buna baxmayaraq, Tiberinin çağırdığı xalq yığıncağı torpaq qanununu qəbul etdi. Onun başçılığı altında artıq torpaqlar alınmağa və yoxsullara paylanmağa başlandı.

Tiberinin düşmənləri ona böhtan atıb dedilər ki, guya, o, padşah olmaq istəyir. Bu böhtandan istifadə edən senatorlar Tiberini və onun tərəfdarlarını öldürüb Tibr çayına atdılar.

E.ə. 123-cü ildə Tiberinin qardaşı *Qay Qrakx* xalq tribunu seçildi. O da torpaqların yoxsullara paylanmasını davam etdirdi. Qayın təşəbbüsü ilə yoxsul kəndlilərə dövlət anbarlarından ucuz qiy-



8. Tiberi və Qay Qrakx qardaşları



*Xalq tribunları və Roma kəndliləri arasında münasibətləri izah edin.*



9. Tiberi Qrakxın xalq yığıncağında çıxışı

mətə taxıl verildi. Qayın yoxsullara bu qədər səxavət göstərməsi senatın xoşuna gəlmədi. Romaya qoşun yeridildi. Küçə döyüşlərində Qayın çoxlu tərəfdarı öldürüldü. Bu döyüşlərdə Qay da həlak oldu. Bundan sonra torpaqların paylanması dayandırıldı. Torpağın satılıb-alınmasını qadağan edən qanun ləğv olundu. Varlılar yenə kəndlilərin torpaqlarını satın almağa başladılar.



*Romada qulların üsyanını təsvir edin.*

**Spartak üsyanı.** E.ə. 74-cü ildə *Kapuya* şəhərindəki qladiator məktəbində qullar qiyam qaldırdılar. 78 nəfər qul qaçaraq *Vezuvi* dağının zirvəsində düşərgə saldı. Üsyana *Spartak* başçılıq edirdi. Ətraf malikanələrin qulları da Spartaka qoşuldular. Onlar Kapuyadan göndərilmiş hərbi dəstəni məğlub edərək xeyli silah ələ keçirdilər.

Senatın göndərdiyi qoşun Vezuvini mühasirəyə aldı. Lakin üsyançılar üzüm tənəklərindən hördükləri nərdivanlarla gecə ikən sıldırım qayadan enərək romalıların üzərinə atıldılar və onları darmadağın etdilər.



10. Üsyançı qulların Vezuvi dağından enməsi

Senat üsyançılara qarşı yeni böyük ordu göndərdi. Ordunun komandanı *Krass* idi. O, üsyançıların yolunu kəsib onları tələyə saldı. Spartak üsyançılara *«acından ölməkdənsə, qılınc zərbəsindən ölmək daha yaxşıdır»* sözləri ilə müraciət etdi və onları Krassın istehkamları üzərinə hücuma apardı.

E.ə. 71-ci ildə Roma qoşunları ilə son döyüşdə Spartak həlak oldu. Krassın və onun köməyinə

yetişən Pompeyin qoşunları üsyançıları darmadağın etdi. Romalılar Kapuyadan Romaya gedən yol boyunca 6 min qulu çarmıxa çəkdilər.

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. 753-cü il | Roma şəhərinin əsası qoyuldu. |
| * E.ə. 753—509-cu illər | Romada padşahlıq dövrü. |
| * E.ə. 509-cu il | Romada respublika quruluşu yarandı. |
| * E.ə. V əsrin əvvəli | Plebeylər xalq tribunlarını seçmək hüquqlarını qazandılar. |
| * E.ə. 264—146-cı illər | Pun müharibələri. |
| * E.ə. 146-cı il | Yunanıstan Romanın itaəti altına düşdü. |
| * E.ə. 133-cü il | Tiberi Qrakx xalq tribunu seçildi. |
| * E.ə. 123-cü il | Qay Qrakx xalq tribunu seçildi. |
| * E.ə. 74—71-ci illər | Spartak üsyanı baş verdi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Patrisi və plebeylər kimlər idilər?
2. Qədim Romada hər bir vətəndaş vəzifə tutmaq hüququna malik idi. Bəs nə üçün yoxsul vətəndaşlar bu hüquqdan istifadə etmirdilər?
3. Respublika dövründə Roma necə idarə olunurdu?
4. Xalq tribunları hansı hüquqlara malik idilər?
5. Pun müharibələri nə üçün baş verdi və nəticəsi nə oldu?
6. Qüdrətli Roma dövləti daha hansı torpaqları tutdu?
7. Tiberi və Qay Qrakx qardaşları yoxsul kəndlilər üçün nə etdilər?
8. Spartak üsyanı hansı səbəbdən baş verdi və nə ilə nəticələndi?

«Roma Respublikasının idarə olunması» haqqında təqdimat hazırlayın.

# 22. RESPUBLİKANIN SONU.
# ROMA İMPERİYASININ YARANMASI VƏ SÜQUTU

Yuli Sezar, diktator, Antoni, Oktavian Avqust, kolonlar, Konstantinopol, vandallar, german tayfaları, Mark Trayan



1. Yuli Sezar

*Yuli Sezar Romada hakimiyyəti necə ələ keçirdi?*



2. Brut

**Yuli Sezar və onun Romada hakimiyyəti zəbt etməsi.** Spartak üsyanı yatırıldıqdan sonra Romada hakimiyyət uğrunda mübarizə gücləndi. Mübarizə sərkərdələr Krass, Pompey və Yuli Sezar arasında gedirdi. Konsulluq müddəti bitdikdən sonra Yuli Sezar Qalliya əyalətinə canişin təyin edildi. O, Romada hakimiyyəti ələ keçirmək istəyirdi. E.ə. 49-cu ildə Sezarın qoşunları Roma üzərinə hərəkət etdi. Sezarı ya Roma üzərində hakimiyyət, ya da rüsvayçı qətl gözləyirdi. O, *«Püşk atılmışdır!»* deyib, irəlilədi. Sezara qarşı hərəkət edən senat qoşunlarına Pompey başçılıq edirdi. Lakin Sezar hücum zamanı o qədər cəld hərəkət etdi ki, Pompeyin müdafiəni təşkil etməyə zamanı olmadı. Sezarın qoşunları müqavimətə belə rast gəlmədən Romanı və bütün İtaliyanı tutdu.

Sezar Pompeyin ordusunu darmadağın etdi. Sezarla Pompeyin tərəfdarları arasında gedən vuruşmalar Romada **vətəndaş müharibəsi*** adlandırıldı. Senat əlacsız qalıb Sezarı ömürlük **diktator*** elan etdi. Metal pullar üzərində onun şəkli həkk olunur, heykəlləri tanrıların heykəlləri ilə yanaşı qoyulurdu. Lakin Sezarın təkbaşına hakimiyyəti uzun sürmədi. E.ə. 44-cü ildə senatın iclası zamanı respublika tərəfdarları Sezara qəsd təşkil etdilər. Qəsdə Brut başçılıq edirdi. Sezara 23 xəncər zərbəsi vurularaq öldürüldü.

Sezarın köməkçisi *Antoni* və varisi *Oktavian* respublikaçılara qarşı çıxdılar. Oktavian Sezarın qohumu idi. Sezar onu özünün varisi elan etmişdi.

* ***Vətəndaş müharibəsi*** – bir ölkənin vətəndaşları arasında gedən silahlı mübarizə
* ***Diktator*** — dövləti idarə etməkdə qeyri-məhdud hüquqa malik olan şəxs

Antoni və Oktavian qüvvələrini birləşdirib respublikaçıları məğlub etdilər.

Qaliblər Roma dövlətinin idarə işlərini öz aralarında bölüşdürdülər. Antoni Roma dövlətinin şərq əyalətlərini, Oktavian isə qərb əyalətlərini idarə edirdi. Antoni və Oktavian arasında rəqabət var idi. Sonda bu da müharibə ilə nəticələndi.

E.ə. 31-ci ildə Antoni ilə Oktavian arasında həlledici döyüş oldu. Bu döyüşdə Antoni məğlubiyyətə uğradı. O, yaşadığı İskəndəriyyə şəhərinə qayıtdı. E.ə. 30-cu ildə Oktavianın qoşunları İskəndəriyyəni tutdular. Misir Romanın əyalətinə çevrildi. Oktavian Romanın şərq və qərb əyalətlərinin tək hakimi oldu. Senat Oktaviana *Avqust* (müqəddəs) fəxri adını verdi.

Oktavian Avqustun dövründən etibarən Roma dövləti *imperiya* adlanmağa başlandı.

Eramızın 98–117-ci illərində hakimiyyətdə olmuş Mark Trayanın dövründə Romanın ərazisi daha da genişləndi. Trayan Qara dənizlə Adriatik dənizi arasındakı torpaqları, Mesopotamiyanı, Kiçik Asiyada Kilikiyanı, Ərəbistan yarımadasında bir çox əraziləri işğal etdi. O, Parfiyaya da yürüş etdi və onun paytaxtı Ktesifonu tutdu. Lakin işğal olunmuş ərazilərdə baş verən üsyanlar onu geri qayıtmağa məcbur etdi. Beləliklə, Trayan Parfiyanın fəthini başa çatdıra bilmədi.

**II əsrin sonu – III əsrdə quldarlıq təsərrüfatının tənəzzülü.** Romada təsərrüfat inkişaf edirdi. Su dəyirmanları, çoxgavahınlı kotan, yeni biçin alətləri ixtira olundu. Lakin quldarlıq texnikanın inkişafını ləngidirdi. Qulların öz əməklərinə marağı az idi. *Qullar öz əməklərinin nəticəsinə maraqlı olsunlar deyə* bəzi quldarlar öz torpaqlarını kiçik sahələrə bölərək qullara və *azad kəndlilərə icarəyə verirdilər.* Belə icarədarlara «daxmalı qullar» və **kolonlar*** deyilirdi.



3. Antoni



4. Oktavian Avqust



*Romada təsərrüfatı inkişaf etdirmək məqsədilə quldarların hansı addımı atdıqlarını müəyyən edin.*

* ***Kolonlar*** – latınca «kolonus» sözündən olub, əkinçi deməkdir




Vadilər

Paytaxt şəhərlər

Şəhərlər

Roma yolları

# ROMA İMPERİYASI





5. Konstantin

*Qərbi və Şərqi Roma imperiyasına daxil olan əraziləri müasir xəritədə müəyyən edin.*

*«Vandallar Romada» adlı təqdimat hazırlayın.*

Onlar məhsulun bir hissəsini özlərində saxlayırdılar. Kolonlardan fərqli olaraq, «daxmalı qullar» azad deyildilər. II əsrdə Roma imperatoru qulların öldürülməsini qadağan etmişdi.

**Roma imperiyasının parçalanması.** 330-cu ildə imperator Konstantinin təşəbbüsü ilə paytaxt qədim yunan şəhəri *Vizantiyə* (Bizansa) köçürüldü. Yeni paytaxt *Konstantinopol* adlandı.

395-ci ildə Roma imperatoru imperiyanı iki oğlu arasında bölüşdürdü. Beləliklə, paytaxtı Konstantinopol olan *Şərqi Roma* (Bizans) və paytaxtı Roma şəhəri olan *Qərbi Roma* imperiyaları yarandı. Bütün İtaliya, Avropanın və Afrikanın qərbi Qərbi Roma imperiyasının hakimiyyəti altında qaldı. Şərqi Roma imperiyasına isə Balkan yarımadası, Misir, Romanın Asiyadakı torpaqları daxil oldu. Artıq zəifləmiş Qərbi Roma imperiyasına V əsrin əvvəlində german tayfaları olan *qotlar, vandallar* hücum etdilər. V əsrin ortalarında isə *hunlar* Romaya yürüş etdilər. Roma papası hunların başçısı *Attiladan* (Atilla) Romanı öz himayəsi altına almasını xahiş etdi. Attila bu təklifi qəbul edib, ordusunu geri çəkdi.

**Qərbi Roma imperiyasının süqutu.** Vandallar bir sıra Avropa ölkələrini tutaraq, oradan Afrikaya köç etmiş, Romanın Afrikadakı əyalətində *Vandal krallığı* yaratmışdılar. 455-ci ildə vandallar Afrikadan İtaliyaya keçib asanlıqla Roma şəhərini tutdular. On minlərlə romalı öldürüldü və qul edildi. Vandallar heykəlləri sındırır, kitabları məhv edir, evləri yandırırdılar. Onların törətdikləri da-



6. Romanın süqutu

ğıntılar o qədər dəhşətli idi ki, o vaxtdan «*vandal*» sözü vəhşi, qəddar adamlara aid edilir.

476-cı ildə german tayfaları Qərbi Roma imperatorunu taxtdan saldılar. Qərbi Roma imperiyası süqut etdi. Qərbi Roma imperiyasının süqut etdiyi il həm də qədim dünya tarixinin sonu hesab olunur.

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. 49-cu il | Sezarın qoşunları Roma üzərinə hərəkət etdi. |
| * E.ə. 30-cu il | Oktavianın qoşunları İskəndəriyyə şəhərini tutdu. Misir Romanın əyalətinə çevrildi. |
| * 330-cu il | Paytaxt Vizantiyə (Bizans) köçürüldü və Konstantinopol adlandı. |
| * 395-ci il | Qərbi və Şərqi Roma imperiyaları yarandı. |
| * 476-cı il | Qərbi Roma imperiyası süqut etdi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Romada vətəndaş müharibələri necə başlandı?
2. «Diktator» ifadəsini izah edin.
3. Misir necə Romanın əyalətinə çevrildi?
4. Roma nə vaxtdan imperiya adlandırıldı?
5. Quldarlıq təsərrüfatı nə üçün tənəzzül etdi? İzah edin.
6. «Daxmalı qullar» və «kolonlar» kimlərə deyilir?
7. Hansı hadisə qədim dünya tarixinin sonu hesab olunur?



«Qüdrətli Roma imperiyası hansı səbəbdən zəiflədi və parçalandı?» müxtəlif mənbələrdən əlavə məlumat toplayın.

## 23. QƏDİM ROMA MƏDƏNİYYƏTİ

Kolizey amfiteatrı, triumf, xristianlıq, Konstantin



1. Panteonun xarici və daxili görünüşü

**Roma şəhəri eramızın ilk əsrlərində.** Roma qüdrətli dövlətə çevrildikdən sonra onun paytaxtı Roma şəhəri Aralıq dənizi sahillərində ən iri şəhər oldu.

İmperatorlar şəhərin **forum*** adlanan mərkəzi meydanında və onun ətrafında abidələr ucaldır, möhtəşəm məbədlər və başqa ictimai binalar tikdirirdilər.

Romanın ən əzəmətli binalarından biri **Kolizey amfiteatrı*** idi. Kolizeydə qladiator döyüşləri keçirilir və teatr tamaşaları göstərilirdi.

Şəhərin ən gözəl memarlıq abidələrindən biri də **Panteon*** idi.



2. Kolizey amfiteatrı

İmperator Trayanın şərəfinə Romada təqribən 40 metr hündürlüyündə sütun ucaldılmışdı. Sütuna lent kimi sarınan mərmər **relyefdə*** imperatorun hərbi yürüşü və döyüş səhnələri təsvir edilmişdir. Sütunun zirvəsində isə Trayanın heykəli qoyulmuşdur.

Romada *zəfər tağları* ən çox yayılmış memarlıq abidələri idi. Təntə-

* ***Forum*** — mərkəzi meydan
* ***Kolizey amfiteatrı*** — latınca «kolosseus» sözündən olub, böyük, iri, ***amfiteatr*** — tamaşagah deməkdir
* ***Panteon*** — bütün tanrıların məbədi deməkdir
* ***Relyef*** — qabarıq təsvir

nəli günlərdə imperatorlar bu tağların altından keçirdilər.

Romanı «Əbədi qızıl şəhər» və ya sadəcə «Şəhər» adlandırırdılar.

Şəhərlərdə isti və soyuq hovuzları olan **termlər*** — hamamlar tikilirdi. Termlərdə istirahət zalları və kitabxanalar da var idi.

İmperator Avqustun əmri ilə Romanın ətrafında göl yaradılmışdı. Burada dəniz döyüşü tamaşaları göstərilirdi. Sirk, cıdır meydanı tikilmişdi. Cıdır meydanında at yarışları keçirilirdi.

Roma müəllifləri tragediya və komediyalar tamaşaya qoyurdular. Qladiator döyüşləri və döyüş arabalarının ötüşməsi romalılar üçün çox maraqlı olurdu.

**Qədim Roma incəsənəti.** Qədim Romada təsviri sənət, heykəltəraşlıq və bədii sənət inkişaf etmişdi. Romalılar yunan və Şərq memarlıq üsullarından geniş istifadə edirdilər. Roma memarları *betonu* ixtira etdilər. Onlar tağşəkilli örtüklər (arkalar) və günbəzlər tikməyi bacarırdılar.

Roma heykəltəraşları yunanlardan çox şey öyrənmişdilər. Yunan heykəllərindən fərqli olaraq



3. Romada imperator Trayanın şərəfinə ucaldılmış sütun

*Roma memarlığının xüsusiyyətlərini müəyyənləşdirin.*

*«Əbədi qızıl şəhər» ifadəsini izah edin.*



4. Romanın qala istehkamları

* ***Term*** — yunanca «termos» sözündən olub, isti deməkdir



5. Konstantinin dövründə inşa olunmuş zəfər tağı



6. Öküz başlı riton

romalıların yaratdığı heykəllər insanın həm xarici görünüşünü dəqiq təsvir edir, həm də onların xarakterini açıb göstərirdi.

*Roma memarları yunan və Şərq memarlığından nələri mənimsəmişdilər? Müəyyənləşdirin.*

**Roma poeziyası və elm.** E.ə. I əsr və b.e.-nın I əsrinin başlanğıcını Roma poeziyasının *«qızıl dövrü»* adlandırırlar. Bu dövrdə Romanın ən görkəmli sənət adamları yaşayıb-yaratmışlar. Şair Vergili «Eneida» poemasını, alim və şair Lukretsi «Cisimlərin təbiəti haqqında» poemasını yazmışdı.

Romalıların yaratdığı latın əlifbasından indi də bir çox xalqlar, o cümlədən Azərbaycan xalqı istifadə edir.

Bu gün elmdə bitkilərin və heyvanların latın dilindəki adlarından istifadə olunur. Xəstəliklərin və dərmanların da adı latıncadır.



7. Romada məktəb

Romada Sezar dövründə tətbiq edilən təqvimdən müəyyən dəyişikliklərlə indi də istifadə olunur. Ayların latın adı da saxlanmışdır: sentyabr — «yeddinci», dekabr — «onuncu» (Romada il mart ayında başla-

nırdı) deməkdir. İyul Yuli Sezarın şərəfinə, sonrakı ay isə Avqustun şərəfinə adlanmışdır. **Antik*** mədəniyyət Avropa ölkələrinin mədəni inkişafı üçün əsas olmuşdur.



8. Romada cərrahiyyə alətləri

**Xristianlığın yaranması.** I əsrdə Fələstində dünya dinlərindən biri olan xristianlıq meydana gəldi. Romalılara görə, xristianlığın peyğəmbəri *İsanın* nitqləri Fələstində Roma hakimiyyətini sarsıtmağa yönəlmişdi. Ona görə də İsanı tutdular və ağacdan düzəldilmiş xaç üzərində çarmıxa çəkdilər. Rəvayətə görə, İsa üç gün sonra diriləreк göyə qalxmışdı. Bir müddət sonra o, şagirdlərinin yanına gələrək vəd etmişdi ki, diriləri və ölüləri mühakimə etmək üçün yerə qayıdacaqdır.

*Antik dövrdə elm, ədəbiyyat və yazıda qazanılan uğurları müəyyən edin.*

Xristianlar icmalarda birləşir, birlikdə ibadət edir, öz bayramlarını keçirirdilər. Vahid tanrını tanıdıqlarına, imperatorlara sitayiş etməkdən boyun qaçırdıqlarına görə Romanın hakim dairələri onların yığıncaqlarını qadağan edirdi.

*Xristianlıq nə üçün Fələstində meydana gəldi və inkişaf etdi?*

Xristian icmalarını birləşdirən və **yepiskoplar*** tərəfindən idarə olunan xristian təşkilatı yarandı. Onu *kilsə* adlandırırdılar.

313-cü ildə imperator Konstantin xristianlara açıq ibadət etməyə və məbədlər tikməyə icazə verdi.

Konstantin ölümqabağı özü də xristianlığı qəbul etdi.



9. İlk xristianların gizli toplantısı

* ***Antik*** — «antikvus» sözündən olub, qədim deməkdir
* ***Yepiskop*** — yunanca nəzarətçi deməkdir

## XRONOLOGİYA

| | |
|---|---|
| * E.ə. I əsr və b.e.-nın I əsrinin başlanğıcı | Roma poeziyasının «qızıl dövrü» adlanır. |
| * I əsr | Fələstində xristianlıq meydana gəldi. |

## SUAL VƏ TAPŞIRIQLAR

1. Romada hansı abidələr inşa olunmuşdu?
2. Romada zəfər tağlarını hansı məqsədlə tikirdilər?
3. Romalılar nə ixtira etmişlər?
4. Roma poeziyasında və elmin inkişafında hansı uğurlar qazanılmışdı?
5. Latın əlifbasından hansı xalqlar istifadə edirdilər?
6. Roma təqvimi hansı dövrdən istifadə olunmağa başlandı?
7. Xristianlıq necə meydana gəldi?

«Roma dünya mədəniyyəti xəzinəsinə nə verdi?» mövzusunda esse yazın.

# BUNU BİLMƏK MARAQLIDIR

## TARİXİ RƏVAYƏTLƏR

**Yunanıstanın tənəzzülü. Plutarx. İskəndər Zülqərneyn (parçalar).** ...Bir dəfə yaxın adamları sürətli qaçışı ilə seçilən İskəndərdən soruşurlar ki, o, Olimpiya oyunlarının qaçış yarışlarında iştirak etmək istərdimi? İskəndər belə cavab verir: «Əgər rəqiblərim şahlar olacaqsa, istəyərəm».

Aristotel İskəndərin müəllimi idi.

...Həkimliyə olan marağı İskəndərə başqalarından daha artıq Aristotel təlqin etmişdi. Şah müxtəlif müalicə üsulları və rejimi təyin etməklə, xəstələnən dostlarının daim köməyinə gələrdi.

...İskəndər Aristotelə heyran idi, öz sözləriylə desək, müəllimini atasından az istəmirdi və deyirdi ki, o, Filippə həyatı üçün, Aristotelə isə ləyaqətlə yaşadığına görə borcludur.

...Daranın qənimət alınmış şeyləri arasında qiymətli bir mücrü tapdılar, onu şaha gətirdilər. İskəndər dostlarından soruşdu ki, bu mücrüyə nə qoysun. Müxtəlif şeylər təklif olundu, ancaq şah qərara aldı ki, onun içində «İliada»nı saxlasın.

...İskəndər Misiri alanda burada bir yunan şəhəri saldırıb, ona öz adını vermək istəyir. Memarların məsləhəti ilə o, gələcək şəhər üçün yer də ayırıb, onu hasara aldırır. Amma gecə qəribə bir yuxu görür. Görür ki, ağsaçlı bir qoca onun yanında dayanıb aşağıdakı şeiri oxuyur:

*Geniş coşqun dənizdə bir ada var*
*Faros çağırır onu adamlar.*

İskəndər həmin dəqiqə qalxıb Farosa yollanır. O vaxt Faros ada idi, sonralar torpaq töküb materiklə birləşdirdilər. İskəndər gördü ki, bura, doğrudan da, gözəl və səfalı yerdir. Yaxşı körfəzi və limanı olan geniş torpaq sahəsi var. Elə buradaca o, memarlara yeni şəhərin planını hazırlamağı tapşırdı. Təbaşir olmadığından memarlar arpa unuyla qara torpaq üzərində hərbi meydana bənzəyən şəhər planı cızdılar. İskəndər onu çox bəyəndi, amma birdən bir sürü quş bulud kimi göyün üzünü aldı, onlar yerə qonub cizgiləri pozdular. Şah bu əlamətdən narahat oldu, amma falçılar izah edəndə ki, onun əsasını qoyduğu şəhəri gəlmə adamlar abad edəcək, İskəndər rahatlaşdı. Sonra o, gözətçilərə tikintiyə ciddi nəzarət etməyi tapşırıb, Amon məbədinə getdi. Yol uzaq, ağır və yorucu idi. Yolçular ən çox suyun yoxluğundan və cənubun qum tozanağından ehtiyat edirdilər. Deyilənə görə, keçmiş zamanlarda belə bir külək Kambizin qoşunlarının dövrəsində nəhəng sədd

əmələ gətirib, əlli min döyüşçünü qum altında məhv etmişdi. Bundan hamı xəbərdar idi. Amma İskəndəri qərarından döndərmək qeyri-mümkün idi. Çünki tale onun niyyətlərinə himayədarlıq edib, onu inadkar böyütmüşdü.

O, nəinki bircə dəfə də düşmənə məğlub olmamışdı, heç vaxt zaman və məkanla hesablaşmamışdı. Və bu da onu ağlasığmaz niyyətlərə sövq edirdi.

...Dara ilə yenidən vuruşmaq üçün İskəndər yürüşə çıxdı və onu təqib etməyə başladı. Təqib ağır və uzun çəkdi. On bir gün ərzində onlar üç min stabi yol getdilər. Döyüşçülərdən çoxu suyun çatışmazlığı üzündən tamam əldən düşmüşdü. Belə günlərin birində İskəndər qatır üstündə tuluqda su aparan makedoniyalılara rast gəldi. Günortaçağı idi. İskəndər susuzluqdan yanırdı. Dəbilqəni cəld su ilə doldurub şah üçün gətirdilər. İskəndər onlardan soruşdu ki, suyu kimin üçün aparırlar. Makedoniyalılar belə cavab verdilər: «Oğlanlarımız üçün aparırıq, amma biz oğlanlarımızı itirsək də, eybi yoxdur, təki sən yaşayasan, çünki bizim başqa oğullarımız da doğula bilər». Bu sözləri eşidən İskəndər dəbilqəni aldı, amma ətrafına boylanıb görəndə ki, onu əhatə edən bütün atlılar suya baxırlar, o, bir qurtum da içmədən dəbilqəni geri qaytardı. O, su gətirənlərə təşəkkür edib dedi: «Mən suyu tək içsəm, onlar ruhdan düşər».

Şahın iradəsini və alicənablığını görən süvarilər atlarını mahmızlayıb dedilər ki, qoy İskəndər tərəddüd etmədən onları irəli aparsın. Nə qədər ki, belə bir şahları var, onların yorğunluq və susuzluq hiss etməyə və hətta ölməyə belə haqları yoxdur.

...Hamı eyni qeyrətlə hərəkətə gəlsə də, yalnız altmış süvari İskən dərlə birgə düşmən düşərgəsinə girə bildi. Ətrafa səpələnmiş bol qızıla və gümüşə əhəmiyyət vermədən, təşvişə düşmüş qadınlara və uşaqlara xətər yetirmədən makedoniyalılar atlarını döyüş meydanından qaçan Daranın ardınca çapdılar. Nəhayət, onlar bədəni nizə zərbələriylə dəlik-deşik olan Daranı tapdılar. Şah su istədi və Polistrat soyuq su gətirdi. Dara yanğısını söndürüb dedi: «Mənim bu xeyirxahlığın əvəzini çıxa bilməməyim bədbəxtliyimin zirvəsidir, amma İskəndər sizi mükafatlandırar. İskəndəri isə mənim anama, arvadıma və uşaqlarıma göstərdiyi xeyirxahlığa görə allahlar mükafatlandırar. Ona mənim salamlarımı çatdırın». Bu sözlərdən sonra Dara Polistratın əlini əlinə alıb, elə o andaca öldü.

İskəndər meyitə yanaşdı, qəlbən kövrələrək plaşını çıxarıb onun üstünü örtdü. Sonralar Bessi tapıb edam etdirdi.

**Romanın salınması haqqında əfsanə.** Əfsanəyə görə, latın şəhərlərindən birinin şahı öz qardaşı qızının əkiz doğulmuş iki oğlunu — Ro-

mulu və Remi Tibr çayına atmağı əmr edibmiş. O qorxurdu ki, uşaqlar böyüdükdən sonra onu taxtdan məhrum edərlər. Tibr çayı daşıbmış, içərisində uşaqlar olan səbət isə ağacın budağına ilişib qalır.

Uşaqlar xilas olurlar. Bir dişi canavar onları öz südü ilə bəsləyir, sonra isə uşaqları bir çoban tapıb tərbiyə edir. Qardaşlar böyüyüb güclü və cəsarətli döyüşçü olurlar. Onlar şaha qarşı üsyan qaldırıb, onu öldürürlər. Bundan sonra Romul və Rem şəhər salmaq qərarına gəlirlər, lakin şəhərin harada salınması və gələcəkdə oranı kimin idarə edəcəyi haqqında mübahisə edib dalaşırlar. Qəzəblənən Romul Remi öldürür. O, çobanın onları tapdığı yerdə şəhər salır və orada şahlıq etməyə başlayır. Bu şəhər Romulun adı ilə Roma adlandırılır.

Romalılar il hesabını öz şəhərlərinin salındığı əfsanəvi ildən — e.ə. 753-cü ildən hesablayırdılar. Romada Kapitoli təpəsində dişi canavarın heykəli qoyulmuşdu.

**Qallar Romada (**Roma yazıçılarının əsərləri əsasında). Romalılar yunanlar tərəfindən kelt adlandırılan xalqlara «qallar» deyirdilər. Latın dilində «qallus» xoruz deməkdir. Keltlər papaqlarına xoruz lələkləri keçirtdikləri üçün romalılar onları belə adlandırırdılar.

E.ə. 390-cı ildə İtaliyanın şimalında məskunlaşan döyüşkən qallar Romanın üzərinə hərəkət etdilər. Ucaboylu, uzun, dağınıq saç-saqqallı qallar vahiməli görkəmə malik idilər. Güclü və sürətli hücumla qallar Roma ordusunu pərən-pərən saldılar. Onlar Kapitoli təpəsi üzərindəki qaladan başqa bütün Roma şəhərini tutub taladılar və yandırdılar. Romalıların yalnız bir hissəsi Kapitoli təpəsi üstündəki alınmaz qalaya çəkilib qalların hücumunu dəf etdi. Gecə vaxtı tam sakitlikdə qallar Kapitoli təpəsinə dırmaşdılar. Onlar o qədər ehtiyatla hərəkət edirdilər ki, nə keşikçilər, nə də itlər təhlükəni hiss etmədilər. Ancaq təpədəki qazlar düşmənin gəlişini hiss edərək, qaqqıldaşdılar və Roma döyüşçülərini yuxudan oyatdılar. Nəticədə qala təhlükədən xilas oldu. Buradan da «Qazlar Romanı xilas etdi» ifadəsi yaranmışdı.

Romalılarla danışıqlar zamanı qallar yalnız 300 kq-dan artıq qızıl almaq şərti ilə Romanı tərk edəcəklərini söylədilər.

Romalılar bu ağır şərtlə razılaşmağa məcbur oldular. Qızıl tərəzidə çəkilərkən, qalların başçısı öz ağır qılıncını da tərəzinin çəki daşları qoyulan gözünə atdı. Romalılar buna etiraz edərkən qalların başçısı dedi: «Bu, məğlubların bəlasıdır». (Qalib həmişə haqlıdır!)

**«Pirr qələbəsi».** Hazırda çox böyük itkilər hesabına başa gələn uğurlar zamanı bəzən «Pirr qələbəsi» ifadəsini işlədirik. Qədim tarixçinin yazdığına görə, bu ifadə belə yaranmışdır.

Romalılar Cənubi İtaliyada yunan şəhərləri ilə vuruşarkən, Balkan yarımadasında Epir padşahlığının hökmdarı Pirr öz ordusu ilə yunan-

lara köməyə gəlir. Onun ordusu 22 min piyada, 3 min atlı döyüşçü və 20 döyüş filindən ibarət idi.

Döyüş zamanı fillər romalıların sıralarına girdi. Fillərin üstündə oturan döyüşçülər romalıların üzərinə ox və mizraq yağdırırdılar. Pirrin ordusu bir neçə qələbə qazandı. Lakin bu qələbələr çox böyük itki hesabına başa gəldiyi üçün Pirr dedi: «Daha bir belə qələbə də qazansaq, mən ordusuz qalacağam».

«Pirr qələbəsi» ifadəsi məğlubiyyətə bərabər qələbə mənasında işlənir.

Romalılar yeni hərbi çağırış elan etdilər, öz əsgərlərinin sayını xeyli artırdılar. Həlledici döyüşdə romalılar düşmənin döyüş fillərinin ayaqlarının altına, üzərinə çoxlu mıx vurulmuş taxtalar atdılar. Filləri uclarına yandırılmış əsgi bağlanan oxlarla qorxudaraq, geri qaçmağa məcbur etdilər. Qaçan fillər öz döyüşçülərinin sıralarını əzdi. Nəticədə Pirrin ordusu məğlub edildi.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. **Алиев В.Г.** Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
2. **Чизхолм Д.** Мировая история в датах. Москва, 1999.
3. **Göyüşov R.** Azərbaycan arxeologiyası. Bakı, 1983.
4. **Редер Д.Г., Черкасова Е.А.** История древнего мира. В 2-х томах. Том I. Москва, 1979.
5. **Семенев С.А.** Происхождение земледелия. Ленинград, 1974.
6. **Семенев С.А.** Развитие техники в каменном веке. Ленинград, 1968.
7. Всемирная история. В 24-х томах. Том I. Москва, 1996.
8. **Арриан Ф.** Поход Александра. Москва, 1962.
9. **Алиев И.** История Мидии. Баку, 1960.
10. **Allahverdiyev S., Haqverdiyev Ə.** Türk dünyası xalqlarının tarixi. Bakı, 1996.
11. **Белявский В.А.** Вавилон легендарный и Вавилон исторический. Москва, 1971.
12. **Бонгард – Левин Г., Ильин Г.** Индия в древности. Москва, 1985.
13. **Дьяконов И.** Очерк истории Древнего Ирана. Москва, 1961.
14. История Древнего Востока. Москва, 1979.
15. **Крамер Н.** История начинается в Шумере. Москва, 1965.
16. **Qeybullayev Q.** Qədim türklər və Ermənistan. Bakı, 1992.
17. **Qüdrətov D.** Türk xalqlarının tarixi. Bakı, 2000.
18. **Гумилев Л.Н.** Тысячелетие вокруг Каспия. Баку, 1990.
19. Мифы народов мира. Энциклопедия. В 2-х томах. Москва, 1980; 1982.
20. **Mustafazadə T.** Ümumi tarix. I hissə. Bakı, 1995.
21. **Özdək Rafiq.** Türkün qızıl kitabı. I hissə. Bakı, 1991.
22. **Рубинштейн Р.** Загадки пирамид. Москва, 1966.
23. **Садаев Д.** История Древней Ассирии. Москва, 1979.
24. **Бурасин А.А., Годер Г.И., Свенцицкая И.С.** История древнего мира. Москва, 1999.
25. **Həsənov Y.** Qədim Roma tarixi. Bakı, 1968.
26. **Nehri C.** Ümumdünya tarixinə bir nəzər. Bakı, 1990.
27. **Парандовский Я.** Верования и легенды греков и римлян. Москва, 1958.
28. **Plutarx.** İskəndər Zülqərneyn. Bakı, 1989.
29. **Сергеенко М.** Ремесленники Древнего Рима. Москва, 1968.
30. **Н.А.Дмитриева, И.А.Виноградова.** Искусство древнего мира. Москва, 1986.
31. **Энн Миллард.** Атлас древнего мира. Лондон, 1974.
32. **Ф.И.Коровкин.** История древнего мира–5. Москва, «Просвещение», 1988.

BURAXILIŞ MƏLUMATI

**ÜMUMİ TARİX 6**

*Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün*
*Ümumi tarix fənni üzrə*

**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Vəli Hüseyn oğlu Əliyev**<br>**İlyas Atababa oğlu Babayev**<br>**Aidə Əkbər qızı Məmmədova** |
| Redaktor | **Gülər Mehdiyeva** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizaynerlər | **Səbinə Məmmədova,**<br>**Təhmasib Mehdiyev** |
| Korrektorlar | **Natəvan İsmayılova,**<br>**Ülkər Tağıyeva** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
2017-025

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 7,83. Fiziki çap vərəqi 8,0. Formatı 70x100 $^{1}/_{16}$.
Səhifə sayı 128. Ofset kağızı. Məktəb qarnituru. Ofset çapı.
Tiraj 18113. Pulsuz. Bakı—2018.

**«Aspoliqraf LTD» MMC**
Bakı, AZ 1052, F.Xoyski küç., 149

PULSUZ

**Əziz məktəbli!**

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!